# ULU XUDAFƏRİN



Araz üstdə Xudafərin körpüsü
Qardaşlığın olub təməl hörgüsü
Şakir ALBALIYEV

Qəzet 2025-ci ildən çıxır № 03-04 (07-08) 20 Mart 2026-cı il


# Novruz bayramınız mübarək!



## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, səadət və işlərinizdə nailiyyətlər diləyirəm.

Azərbaycan torpağında çox qədim köklərə malik Novruz bayramı ulu əcdadlarımızın indiki nəsillərə müqəddəs ərməğanıdır. Bu əziz bayram uzun əsrlərdən bəri milli təfəkkür tərzimizin ayrılmaz tərkib hissəsi olub, mədəni dəyərlərimizin təşəkkülünə xüsusi töhfə vermişdir. Novruz mərasimlərində xalqımızın nikbin dünyagörüşü, təbiətə sonsuz sevgisi, yüksək əxlaqi meyarları və gələcəklə bağlı ən işıqlı arzuları bütün zənginliyi ilə təcəssümünü tapır.

Novruz ənənələrini yad təsirlərdən qoruyaraq zamanın sınaqlarından uğurla çıxarması və dövrümüzədək yaşatması Azərbaycan xalqının öz şərəfli tarixi qarşısında xidmətlərindəndir. Ali bəşəri keyfiyyətlər və dərin mənəviyyat xəzinəsi olaraq dünya mədəni irsinin qiymətli nümunələri sırasında yer alan Novruz bayramı bu gün də Vətənimizin hər bir guşəsində yüzillərin yaddaşında iz qoymuş adətlərə uyğun el şənlikləri ilə qarşılanır.

Əminəm ki, yaz fəslinin yeniləşdirici ab-havası gələcəyimizi arzularımıza uyğun qurmaq şövqümüzü daha da artıracaq və biz əzmimizlə azadlığına qovuşdurduğumuz əzəli yurd yerlərimizi aydın səma altında gözəlliklər məskəninə çevirəcəyik.

Qoy qarşıdan gələn Novruz bayramı qəlblərinizi nurla doldursun, hamınıza xoş bahar əhval-ruhiyyəsi bəxş etsin, evinizə, ocağınıza əmin-amanlıq, firavanlıq və bol ruzi-bərəkət gətirsin.

**Bayramınız mübarək olsun!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2026-cı il*

## Novruz bayramı münasibətilə rayon tədbiri keçirilib

**19 mart 2026-cı il tarixdə Ulu öndər Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında Azərbaycan xalqının milli bayramı olan Novruz bayramı münasibətilə ümumrayon tədbiri keçirilib.**







Bayram tədbirində Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, Milli Məclisin deputatı Ceyhun Məmmədov, YAP rayon təşkilatının fəalları, Hüquq-Mühafizə, idarə, müəssisə və təşkilatların rəhbər və kollektivləri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, qazilər, veteranlar, ağsaqqallar və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Rayonun ümumtəhsil məktəblərinin hazırladıqları milli folklor nümunələrindən və əl işlərindən ibarət sərgiyə baxışla başlanan Novruz şənliyində rayon rəhbəri bayram tonqalı alovlandırıb.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə davam edən tədbirdə çıxış edənlər xalqımızın milli bayramı olan Novruz bayramı münasibətilə rayon sakinlərini və qonaqları təbrik edib, xoş arzularını bildiriblər. Qeyd olunub ki, Novruz xalqımızın qədim ənənələrini bütün rəngarəngliyi ilə qoruyub saxlayan, tarixi keçmişimizə yüksək ehtiram və milli-mənəvi dəyərlərimizə dərin bağlılığı nümayiş etdirən qədim el bayramıdır. İnsanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməl yaradan bu bayram firavanlığın başlanğıcı, ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbətin təcəssümüdür. Dəyərlərimizin qorunmasına və dünyada təbliğinə böyük önəm verən, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hər il bayram münasibətilə xalqımıza ünvanladıqları təbrik, bayram şənliklərində iştirakı və onlarla sevinclərini paylaşmağı artıq ənənəyə çevrilib.

Novruzun əsas personajları olan Kosa və Keçəlin bir-birindən maraqlı çıxışları, rayonun bədii özfəaliyyət kollektivlərinin hazırladıqları rəngarəng konsert proqramı iştirakçılar tərəfindən alqışlarla qarşılanıb. Eyni zamanda baharın gəlişini, torpağın oyanışını əks etdirən Novruz xonçaları, səmənilər, bayramın rəmzi olan şirniyyatlar tədbirə xüsusi gözəllik bəxş etdi.

## Novruz bayramınız mübarək

**Hörmətli həmvətənlər!**
**Əziz Cəbrayıllılar!**

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı, səadət və xoş əhval-ruhiyyə arzulayıram. Novruz ulularımızdan bizə yadigar qalan, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən qədim el bayramıdır. Milli – mənəvi dəyərlərimizə sadiq olan xalqımız öz adət-ənənələrini həssaslıqla qoruyub saxlayaraq, nəsildən-nəslə ötürür.

Təbiətin oyanması və yeniləşməsinin rəmzi olan Novruz bayramı insanları bir araya gətirir, qarşılıqlı hörməti gücləndirir, ruhən yeniliyə, mənəviəxlaqi saflığa, xeyirxahlığa səsləyir, cəmiyyətimizdə birlik və həmrəyliyi daha da gücləndirən dəyərləri özündə birləşdirir.

Milli-mənəvi dəyərlərimizə bizi daha da yaxınlaşdıran bu bayram günlərində dövlətimizin davamlı inkişafı və tərəqqisi üçün dualar edilir, şəhidlərimizin əziz xatirəsi ehtiramla yad olunur. İşğaldan azad edilmiş ərazilərdə bayram tonqalları alovlanır, şanlı bayrağımız qürurla dalğalanır. Ali Baş Komandanın rəhbərliyi altında minlərlə yurddaşımız uzun illərdən sonra bu gözəl bayramları tarixi torpaqlarında, doğma yurd-yuvalarında qeyd edirlər.

Arzu edirəm ki, Novruzun yenilənmə ruhu hər bir ocağa sevinc, ruzi-bərəkət, firavanlıq və xoşbəxtlik gətirsin, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməsin, xoş ovqat, sülh və əmin-amanlıq dolu gələcək bəxş etsin.

**Bayramınız mübarək olsun!**

***Kamal Həsənov***
***Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı***

*19 mart 2026-cı il*

# Hesabat yığıncağı keçirilib





**23 yanvar 2026-cı il tarixdə Rayon İcra Hakimiyyətinin inzibati binasının akt zalında 2025-ci ilin sosial – iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə hesabat yığıncağı keçirilib.**

Hesabat yığıncağında Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Zöhrab Bağırov, Milli Məclisin deputatı Ceyhun Məmmədov, YAP rayon təşkilatının sədri Arif Fərzəliyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının rəhbərləri, YAP fəalları, ağsaqqallar, şəhid ailələri, qazilər, veteranlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

İştirakçılar əvvəlcə Heydər Əliyev adına Mədəniyyət və İstirahət parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə Ulu Öndər Heydər Əliyevin və Respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov rayonda 2025-ci il ərzində görülmüş işlər, mövcud problemlər və qarşıda duran vəzifələrlə bağlı geniş hesabat məruzəsi ilə çıxış edib. İcra başçısı ölkə miqyasında müxtəlif sahələrdə əldə olunmuş uğurlar və işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işlərindən söhbət açaraq bildirib ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə davamlı iqtisadi islahatlar həyata keçirilir, bütün sahələr üzrə dinamik inkişaf təmin olunur, yeni iş yerləri yaradılmaqla əhalinin məşğulluq səviyyəsi yüksəldilir. İşğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi Cəbrayıl rayonunda da "Böyük Qayıdış" proqramı uğurla icra olunur, sakinlərin öz ata-baba yurdlarında daimi məskunlaşmaları təmin edilir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Zöhrab Bağırov, Milli Məclisin deputatı Ceyhun Məmmədov və digər çıxış edənlər rayonun sosial-iqtisadi inkişafı sahəsində görülmüş işlər, əhalinin məşğulluğu, sosial rifahın yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək, əldə olunan nailiyyətlərin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olduğunu vurğulayıblar.

Sonda yığıncaq iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət ünvanlanıb.

# Horovlu kənd sakinləri 2026-cı ilin sevincini doğma yurdlarında bölüşürlər

28 yanvar 2026-cı il tarixdə Bakı şəhərindən 8 ailə 35 sakin, Abşeron rayonundan 3 ailə 13 sakin, Biləsuvar rayonu ərazisində salınmış Cəbrayıl qəsəbələrindən 2 ailə 7 sakin, Xızı rayonundan 3 ailə 10 sakin, Beyləqan rayonundan 3 ailə 8 sakin və Hacıqabul rayonundan 1 ailə 4 sakin olmaqla ümumilikdə 20 ailə 77 sakin növbəti köç karvanında Horovlu kəndinə yola salınıb.

***

25 fevral 2026-cı il tarixində Dövlət Proqramı çərçivəsində Horovlu kəndinə respublikanın müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış 115 nəfərdən ibarət daha 30 ailə köçürülmüşdür.

Bununla da, bu günədək Horovlu kəndinə köçürülən ailələrin ümumi sayı 241 ailə (954 nəfər) təşkil etmişdir. Onlardan 119 ailə (458 nəfər) Bakı şəhərində, 65 ailə (258 nəfər) Biləsuvar rayonu ərazisindəki Cəbrayıl qəsəbələrində, 57 ailə (238 nəfər) isə respublikanın digər bölgələrində məskunlaşmış keçmiş məcburi köçkünlərdir.

# Səyyar görüş-qəbullar

### *2 saylı Cəbrayıl qəsəbəsində*

Cəbrayıl rayon İcra Hakimiyyətinin Başçısı Kamal Həsənov 22 yanvar 2026-cı il tarixdə 2 saylı qəsəbədə rayon sakinləri ilə səyyar görüş-qəbul keçirərək, müraciətlərini dinləyib. İcra Hakimiyyəti aparatının məsul əməkdaşları, YAP fəalları və qəsəbə sakinlərinin iştirak etdiyi tədbirdə İcra başçısı ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində qa-



zanılan uğurlardan, əhalinin sosial problemlərinin həlli istiqamətində görülən işlərdən, Respublika Prezidenti cənab İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə səfərlərindən, aparılan quruculuq işlərindən, əhalinin doğma yurdlarına köçündən və qarşıda duran vəzifələrdən ətraflı danışıb.

Qəbul zamanı rayon sakinləri tərəfindən qaldırılan məsələlərin bir qismi yerində öz həllini tapıb, bəzi məsələlərin həlli isə nəzarətə götürülüb. Rayon sakinləri əhalinin rifahının yaxşılaşdırılması sahəsində görülən işlərə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

### *Nərimanov rayonunda*

06 fevral 2026-cı il tarixdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin Başçısı Kamal Həsənov Bakı şəhəri, Nərimanov rayonunda yerləşən rayon İcra Hakimiyyətinin qərargahında sakinlərlə səyyar görüş-qəbul keçirib. İcra Hakimiyyətinin məsul əməkdaşları və ərazidə yaşayan rayon sakinlərinin iştirak etdiyi tədbirdə rayon rəhbəri ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində qazanılan uğurlardan, əha-



linin sosial problemlərinin həlli istiqamətində görülən işlərdən, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işlərindən və qarşıda duran vəzifələrdən ətraflı danışıb. Qəbul zamanı rayon sakinləri tərəfindən qaldırılan məsələlərin bir qismi həll olunub, bəzi məsələlərin həlli isə nəzarətə götürülüb. Rayon sakinləri əhalinin rifahının yaxşılaşdırılması sahəsində görülən işlərə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

### *3 saylı Cəbrayıl qəsəbəsində*

06 mart 2026-cı il tarixdə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov 3 saylı Cəbrayıl qəsəbəsində səyyar görüş-qəbul keçirib. Qəbulda RİH başçısı aparatının məsul əməkdaşları, xidməti təşkilatların rəhbərləri və qəsəbədə məskunlaşan rayon əhalisi iştirak edib.



Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunmasından söhbət açan rayon rəhbəri bildirib ki, bu Sərəncam Azərbaycanın milli inkişaf strategiyasının, qlobal məsuliyyətinin və gələcəyə yönəlmiş baxışının ifadəsidir. Bu addım ölkəmizin dayanıqlı şəhərsalma, ekoloji tarazlıq və mədəni irsin qorunması sahələrində əldə etdiyi təcrübəni beynəlxalq müstəviyə çıxarmaq üçün mühüm platforma yaradır. İcra başçısı Prezident İlham Əliyevin birbaşa nəzarəti altında "Böyük qayıdış" proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərdə həm infrastruktur, həm də sosial və ekoloji layihələrin həyata keçirildiyini nəzərə çatdıraraq qeyd edib ki, həmin ərazilərdə aparılan bərpa və yenidənqurma işləri şəhərsalma və memarlığın dövlət siyasətində prioritet istiqamət olduğunu bir daha təsdiqləyir.

Eyni zamanda İcra başçısı qəbulda iştirak edən sakinləri dinləyərək qaldırdıqları problemlərin həll olunması üçün müvafiq tapşırıqlar verib, həlli vaxt tələb edən məsələlərlə bağlı isə aidiyyəti orqanlara müraciət edilməsini nəzarətə götürüb.

Sakinlər əhalinin problemlərinin həll edilməsi məqsədilə yerlərdə həyata keçirilən tədbirlərə, göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

### *Bakı şəhərində*

Cəbrayıl rayon İcra Hakimiyyətinin Başçısı Kamal Həsənov 12 mart 2026-cı il tarixdə rayon İcra Hakimiyyətinin Bakı şəhərində yerləşən qərargahında sakinlərlə səyyar görüş-qəbul keçirərək, müraciətlərini dinləyib. Rayon İcra hakimiyyətinin məsul əməkdaşları, YAP fəalları və rayon



vətəndaşlarının iştirak etdiyi tədbirdə İcra başçısı ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində qazanılan uğurlardan, əhalinin sosial problemlərinin həlli istiqamətində görülən işlərdən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərindən, işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işlərindən və qarşıda duran vəzifələrdən ətraflı danışıb. Qəbul zamanı rayon sakinləri tərəfindən qaldırılan məsələlərin bir qismi yerində öz həllini tapıb, bəzi məsələlərin həlli isə nəzarətə götürülüb. Rayon sakinləri əhalinin rifahının yaxşılaşdırılması sahəsində görülən işlərə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

### *Əlisoltanlı qəsəbəsində*

Dövlət başçısı cənab İlham Əliyevin yerlərdə vətəndaş müraciətlərinə obyektiv şəkildə baxılması, vətəndaş məmnunluğunun təmin edilməsi ilə bağlı müvafiq Sərəncam və tapşırıqlarının icrasına Cəbrayıl rayonunda hər zaman operativ və həssas yanaşılır. Bu məqsədlə 16 mart 2026-cı il tarixdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Saatlı rayonu, Əlisoltanlı köçkün qəsəbəsində fəaliyyət göstərən məktəb binasında ərazidə məskunlaşan rayon əhalisi ilə səyyar görüş-qəbul keçirib.



Aparatın məsul əməkdaşları və rayon sakinlərinin iştirak etdiyi görüşdə icra başçısı qəbul iştirakçılarını salamlayıb, və qarşıdan gələn Novruz və müqəddəs Ramazan bayramları münasibətilə təbrik edərək, səmimi ürək sözlərini çatdırıb. Görüşlərin keçirilməsində məqsəd vətəndaş məmnunluğunu təmin etmək olduğunu bildirən başçı hər zaman olduğu kimi, bugünkü səyyar görüşün əsas məqsədinin vətəndaşları narahat edən qayğıları, qaldırılan məsələləri, səslənən fikirləri dinləmək, həlli istiqamətində əməli işlər görmək, ehtiyac yarandığı halda aidiyyəti təşkilatlar, mərkəzi icra hakimiyyəti orqanları qarşısında məsələ qaldırmaq olduğunu bildirib. Həmçinin RİH başçısı Kamal Həsənov prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə, xüsusilə də işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa quruculuq işləri haqqında ətraflı məlumat verərək, dağıdılmış şəhər və kəndlərimizdə müasir standartlara uyğun "ağıllı kənd" və "ağıllı şəhər" layihələrinin uğurla icra olunduğunu vurğulayıb. O, bildirib ki, dövlətimizin qarşısında duran prioritet məsələlərdən biri də məhz vətəndaş məmnunluğunun və dayanıqlı inkişafın təmin olunmasıdır. Daha sonra səyyar qəbulda iştirak edən sakinlərin müraciət, təklif və xahişləri dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin həlli ilə bağlı RİH başçısı tərəfindən müvafiq tapşırıqlar verilib və onların icrası nəzarətə götürülüb.

# Ümumrayon iməciliyi keçirilib



**Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi və Novruz bayramının gəlişi münasibətilə 10 mart 2026-cı il tarixdə Cəbrayıl qəsəbələrində genişmiqyaslı ağacəkmə, sanitar-təmizlik aksiyası keçirilib.**

Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə ətraf mühitin qorunması məqsədilə keçirilən aksiyada rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların kollektivləri, YAP fəalları, ictimiyyət nümayəndələri fəal iştirak ediblər.

Aksiya çərçivəsində Bəhrəmtəpə-Biləsuvar magistralından 3 saylı qəsəbəyə giriş və qəsəbələri birləşdirən asfalt örtüklü yolun kənarlarında, 4 saylı qəsəbədə yerləşən Heydər Əliyev parkında, idarə və müəssisələrin həyətlərində, eləcə də digər ictimai yerlərdə müxtəlif növ ağaclar, dekorativ və mövsümi bəzək gülləri əkilmişdir. Bununla yanaşı mövcud ağaclara və yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilmiş, ağacların gövdə ətrafı yumşaldılaraq ağardılmış, ətrafdakı məişət tullantıları təmizlənərək poliqonlara daşınmışdır.

Aparılan sanitar-təmizlik tədbirləri qəsəbələr ərazilərində ekoloji tarazlığın qorunmasına, ictimai məkanların daha da səliqəli və baxımlı vəziyyətə gətirilməsinə, həmçinin sakinlər üçün sağlam və rahat yaşayış mühitinin formalaşdırılmasına xidmət edir.

Qəsəbə sakinlərinin də iştrakı ilə keçirilən sanitar-təmizlik və yaşıllaşdırma işləri Novruz bayramına qədər davam etdirilmmişdir.

# Torpaq çərşənbəsi qeyd olunub

**17 mart 2026-cı il tarixdə rayon İcra Hakimiyyətinin, Təhsil sektorunun və Böyük Mərcanlı kənd Uşaq İncəsənət məktəbinin birgə təşkilatçılığı ilə 8 saylı tam orta məktəbdə torpaq çərşənbəsi münasibəti ilə bayram şənliyi keçirilib.**



Şənlikdə Rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə İbayeva, Böyük Mərcanlı kənd Uşaq İncəsənət məktəbinin direktoru Vidadi Orucov, 1 saylı uşaq bağçasının, Böyük Mərcanlı kənd Uşaq İncəsənət məktəbinin və 8 saylı tam orta məktəbin müəllim və şagird kollektivləri, mədəniyyət işçiləri iştirak ediblər. Çıxış edənlər iştirakçıları baharın gəlişi, torpaq çərşənbəsi münasibəti ilə təbrik edərək xoş arzularını bildirib, sülh və əmin-amanlıqla dolu il olmasını arzulayıblar. Qeyd olunub ki, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən bu bayram xalqımızın mədəniyyətini, milli-mənəvi dəyərlərini dünyaya tanıtdıran qədim el bayramıdır. Xalqımızın mənəvi dünyasını, milli düşüncə tərzini, məfkurəsini, qədim mifik görüşlərini, folklorunu, milli varlığını Novruz qədər bütün zənginliyi ilə özündə ifadə edən ikinci bir bayram təsəvvür etmək çətindir. Ümummilli lider Heydər Əliyevin və siyasi kursunun davamçısı Prezident İlham Əliyevin xidmətləri sayəsində xalqımızın milli-mənəvi dəyərləri və adət-ənənələri bu gün də qorunub saxlanılır və inkişaf etdirilir.

Böyük Mərcanlı kənd Uşaq İncəsənət və 8 saylı tam orta məktəblərin müəllim və şagird kollektivinin hazırladıqları bayram əhval-ruhiyyəli proqram tədbirə rəng qatıb. Novruz bayramına, çərşənbələrə aid səslənən bayatılar, şeirlər Novruz personajları Kosa, Keçəl və Bahar qızının mərasimə gəlməsi bayram tədbirini daha da şənləndirib. Xonça, səməni, şəkərbura, paxlava kimi Novruz şirniyyatları mərasimin bəzəyi olub. Mərasim yumurta döyüşdürmə, kəndir dartma və digər maraqlı oyunlarla da yadda qalıb.

# "1 mart - Ümumdünya Mülki Müdafiə günü"



27 fevral 2026-cı il tarixdə "1 Mart - Ümumdünya Mülki Müdafiə günü" ilə əlaqədar Cəbrayıl qəsəbələrində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarının əməkdaşlarının, o cümlədən ümumtəhsil məktəblərinin şagirdlərinin iştrakı ilə Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin İmişli rayon Dövlət Yanğından Mühafizə Hissəsinin 86 nömrəli Yanğından Mühafizə bölməsində "Dayanıqlı və sabit gələcək naminə ekoloji risqlərin idarə edilməsi" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə çıxış edənlər Beynəlxalq Mülki Müdafiə Təşkilatının yaranma tarixindən, 1993-cü ildən Azərbaycanın da bu nüfuzlu beynəlxalq təşkilatda təmsil olmasından bəhs ediblər. Bildirilib ki, bu il ölkəmizdə Beynəlxalq Mülki Müdafiə günü "Dayanıqlı və sabit gələcək naminə ekoloji risklərin idarə edilməsi" mövzusuna həsr olunub.

Tədbir zamanı iştirakçılara yanğının söndürülməsi, yaralılara tibbi yardımın göstərilməsi, kimyəvi zəhərlənmə zonasının lokallaşdırılması, obyektə kimyəvi kəşfiyyatın təşkili ilə bağlı zəruri tədbirlər haqqında geniş məlumat verilib, ətrafdakı radiasiyanın müəyyən olunması, əleyhqaz və digər vasitələrdən istifadə qaydaları izah edilib.

# Что такое «лжевторник» и почему его забывают перед Новрузом в Азербайджане?

**Неотъемлемой частью Новруза являются предпраздничные вторники, представляющие собой сложную и многогранную систему обрядов. По своей сущности они классифицируются на «ложные» и «истинные», что демонстрирует глубокое дуалистическое мировоззрение народа.**

В беседе с Азертадж доктор филологических наук доцент Шакир Албалыев подчеркнул, что модель осмысления мира в народной традиции базируется на единстве противоположностей: верх и низ, белое и черное, день и ночь, истина и ложь. Эти противопоставления не просто отрицают друг друга, но и взаимно дополняют, выступая движущей силой существования.

По его словам, Новруз служит ритуальным воплощением философско-мифологических взглядов народа на мироздание и природу, а градация вторников на лже- и истинные символизирует диалектические законы бытия. «Ложные» вторники знаменуют переходный этап, когда природа еще не обрела стабильность, тогда как «истинные» указывают на момент окончательного пробуждения и обновления жизненной энергии. Эта последовательность в обрядовой форме отражает рождение порядка из хаоса и переход от старого к новому.

Эксперт отметил, что за последние десятилетия стремительный научно-технический прогресс, глобализационные процессы, а также социальные и моральные потрясения в мире существенно повлияли на традиционную культуру обрядов. В частности, несправедливые войны и вынужденная миграция людей с родных земель стали факторами, препятствующими прежнему размаху и воодушевлению при проведении народных торжеств.

Следствием этого стала утрата некоторых вековых ритуальных пластов или их сохранение в упрощенном виде. Ярким примером данного процесса служит постепенное исчезновение из коллективной памяти разделения вторников на лже- и истинные. Между тем, это разграничение является не просто фольклорным нюансом, а значимым элементом народного понимания космического времени и взаимоотношений человека с природой.

Ученый полагает, что возвращение указанных ритуальных слоев в научное и общественное обсуждение позволит глубже раскрыть философское содержание Новруза.

По словам собеседника, само понятие «лжевторник» сегодня постепенно предается забвению: «Ранее фольклористы фиксировали наличие трех ложных и трех истинных вторников. В Карабахе - одном из регионов, где фольклор сохранялся особенно хорошо, - вплоть до 1993 года, до трагедии вынужденного переселения, перед четырьмя финальными предпраздничными вторниками отмечался один лжевторник».

Ш.Албалыев добавил, что в этот день, следуя названию, разжигали символический («ложный») костер. Соседи собирались у огня, шутили и беседовали, создавая приподнятую атмосферу в ожидании следующих - истинных вторников. Данный обряд служил своеобразным знаком подготовки к настоящим праздникам.

Опираясь на народную пословицу «Народ собирается даже на ложный зов», люди, пусть и условно, создавали обстановку радости и воодушевления, психологически и духовно настраиваясь на большой праздник.

# Novruzun unudulan adətləri - Bayram hansı xalqa mənsubdur?

**Novruz bayramı minilliklər boyu müxtəlif xalqların mədəniyyətində özünə yer tutmuş ən qədim bayramlardan biridir. Baharın gəlişini, təbiətin oyanışını və həyatın yenilənməsini simvolizə edən bu bayram Azərbaycanla yanaşı, İslam dünyasında, İran coğrafiyasında, Mərkəzi Asiya ölkələrində və bir sıra Şərq xalqları arasında geniş şəkildə qeyd olunur. Məhz bu geniş coğrafiyada yayılması səbəbindən tarixən Novruzun hansı xalqa mənsub olması məsələsi ətrafında müxtəlif fikirlər və iddialar səsləndirilib. Bəzi tədqiqatçılar onun köklərini qədim türk dünyagörüşü ilə bağlayır, digərləri isə bayramın zərdüştilik dövründə formalaşdığını və fars mədəniyyəti ilə əlaqəli olduğunu iddia edirlər.**

Bununla belə, Novruz bayramı yalnız baharın gəlişini qeyd edən bir gün deyil, həm də əsrlər boyu formalaşmış zəngin adət-ənənələr sistemi ilə seçilən böyük bir mədəni irsdir. Bu bayramın ətrafında xalqın dünyagörüşünü, həyat tərzini və təbiətlə münasibətini əks etdirən çoxsaylı mərasimlər, oyunlar və inanclar formalaşıb. Lakin zaman keçdikcə, həyat tərzinin dəyişməsi, müharibələr və köç prosesləri səbəbilə bu ənənələrin bəziləri əvvəlki kimi yaşadılmır, bəziləri isə tədricən unudulmağa başlayır.

Maraqlıdır, hansı Novruz adət-ənənələri keçmişdən bugünə unudulub?

Mövzu ilə bağlı Modern.az-a danışan filologiya elmləri doktoru, folklorşünas Şakir Albalıyev bildirib ki, Novruz bayramının hansı xalqa mənsub olması tarixən müxtəlif xalqlar arasında müzakirə olunub. Onun sözlərinə görə, əslində bu, kifayət qədər mübahisəli mövzudur və müxtəlif baxışlar mövcuddur.

"Bu mübahisələrin müəyyən mənada haqq qazandıran tərəfi də var. Çünki Novruz elə böyük və qədim bir mədəniyyət hadisəsidir ki, bu gün bütün Şərq dünyasında, Türk dünyasında və İslam aləmində qeyd olunur. Məhz buna görə də Novruzla bağlı müxtəlif fikirlər səsləndirilir. Günümüzdə isə demək olar ki, Novruz bütün Şərq xalqlarının, Türk dünyasının və İslam aləminin ortaq bayramı kimi qeyd edilir".

Ş.Albalıyev həmçinin söyləyib ki, Novruz bayramının əslində hansı xalqa məxsus olması ətrafında çox müxtəlif iddialar mövcuddur:

"Azərbaycan xalqı və ümumiyyətlə türk xalqları Novruzu öz mədəni irsi hesab edir. Digər tərəfdən, bəzi fars tədqiqatçıları onun köklərini zərdüştiliklə əlaqələndirərək fars mədəniyyətinə aid olduğunu bildirirlər. İranda da Novruz çox böyük təntənə ilə qeyd olunur və dövlət səviyyəsində uzunmüddətli istirahət günləri verilir. Eləcə də digər türk xalqlarında və İslam dünyasına mənsub ölkələrdə bu bayram keçirilir".

Folklorşünas onu da əlavə edib ki, Novruzun kökləri bəşəriyyətin dünyanı dərk etməyə başladığı dövrlərə qədər gedib çıxır:

"Yəni insanın təbiəti, həyatın yenilənməsini və mövsümlərin dəyişməsini anlamağa başladığı dövrdən belə bir bayramın formalaşdığını düşünmək olar. Bu mənada Novruz sadəcə bayram deyil, həm də bir həyat fəlsəfəsidir, dünyaya baxış sistemidir. O, insanın təbiətlə münasibətini və həyatın yenilənməsi ideyasını ifadə edir.

Amerikalı alim Samuel Kramerin məşhur bir fikri var: "Tarix Şumerdən başlanır". Şumerlər dünya mədəniyyətinə böyük töhfələr verən ən qədim sivilizasiyalardan biridir. Bəzi tədqiqatçılar şumerlərin proto-türk mənşəli olduğunu irəli sürürlər. Bu baxımdan belə bir fikir də mövcuddur ki, bəşəriyyətin ən qədim mədəni ənənələrindən biri kimi Novruzun formalaşmasında qədim türk düşüncəsi və dünyagörüşü də mühüm rol oynayıb.

Türk zəkası və türk dünyagörüşü tarix boyu nəhəng mədəniyyət hadisələrini formalaşdıraraq dünyaya ötürə bilib. Bu baxımdan Novruz kimi böyük mədəni fenomen də zamanla müxtəlif xalqlar tərəfindən mənimsənilib və hər xalq onu öz dünyagörüşünə uyğun şəkildə yaşadıb. Məhz buna görə də bu gün Novruz üzərində müxtəlif iddialar səsləndirilir və fərqli xalqlar onu öz mədəniyyətlərinin bir parçası kimi təqdim edirlər".

Həmsöhbətimiz eyni zamanda Novruzla bağlı unudulmuş adət-ənənələrin mövcudluğu məsələsinə də aydınlıq gətirib:

"Ümumiyyətlə, bayramlar elə böyük mədəni hadisələrdir ki, onların tarixi yüzilliklərə, hətta bəzən minilliklərə dayanır. Tarix boyu ictimai-iqtisadi quruluşların dəyişməsi, həyat tərzinin yenilənməsi nəticəsində bəzi adətlər zamanla unudulur, digərləri isə yeni məna qazanaraq formalaşır. Bu, əslində tarixi inkişafın təbii prosesidir.

Bununla belə, xalqın əsrlər boyu formalaşdırdığı adət-ənənələr birdən-birə yoxa çıxmır. Onlar nəsildən-nəslə ötürülərək müəyyən dəyişikliklərə uğrayır, bəzən transformasiya olunur. Bu dəyişikliklər çox vaxt hiss olunmur və insanlar elə düşünür ki, bayram əvvəlki kimi qeyd edilir. Lakin tədqiqatçılar bu məsələləri daha dərindən araşdırdıqda bəzi adətlərin zamanla unudulduğunu və ya dəyişdiyini görürlər.

Novruz bayramında da belə hallar müşahidə olunur. Lakin burada söhbət bayramın özünün unudulmasından getmir. Əksinə, Novruz xalqın mənəvi varlığını qoruyan, onun kimliyini yaşadan ən mühüm mədəni atributlardan biridir. Sadəcə olaraq müəyyən dövrlərdə bayramın bəzi mərasimləri əvvəlki kimi geniş şəkildə keçirilə bilməyib".

Müsahibin sözlərinə görə, xüsusilə son bir qərinədə, otuz ildən artıq müddətdə ölkəmizin yaşadığı ictimai-siyasi hadisələr bu prosesə təsir göstərib:

"Qərbi Azərbaycandan deportasiya olunma, Qarabağ münaqişəsi nəticəsində yüz minlərlə insanın qaçqın və məcburi köçkün düşməsi xalqın həyatına ağır təsir edib. Bu vəziyyət Novruz bayramının bəzi adətlərinin əvvəlki kimi icra olunmasına da mane olub.

Çünki Novruz əsasən açıq havada, geniş məkanlarda keçirilən xalq şənliyidir. Dağların başında tonqal qalamaq, düzənliklərdə bayram mərasimləri keçirmək, gecələr səhərə qədər şənlik etmək kimi ənənələr üçün uyğun mühit və şərait lazımdır. Məcburi köçkün vəziyyətində yaşayan insanlar isə bu adətləri əvvəlki kimi davam etdirə bilmədilər. Şəhər mühitində də kənd və qəsəbələrdəki kimi geniş bayram coşqusunu yaşatmaq həmişə mümkün olmur. Bu baxımdan bayramın keçirilmə imkanları müəyyən qədər məhdudlaşdı və bəzi adətlər zamanla arxa plana keçdi".

Ş.Albalıyev onu da xatırladıb ki, qədim dövrlərdə Novruz ərəfəsində yeddi çərşənbə qeyd olunardı:

"Onların üçü "yalançı çərşənbə", dördü isə əsas ilaxır çərşənbələr hesab edilirdi. Bu yalançı çərşənbələr zamanla demək olar ki, unudulub. Lakin Qarabağ bölgəsində, xüsusilə mənim yaşadığım Cəbrayılda 1993-cü ilə qədər həmin yalançı çərşənbələrdən biri qeyd olunurdu. İşğal və məcburi köçkünlük nəticəsində isə bu ənənə də tədricən aradan qalxdı", - deyə o fikrini tamamlayıb.

*Aytac Şirinzadə*

№ 03-04 (07-08) 20 Mart 2026-cı il

ULU XUDAFƏRİN

# Novruz bayramı, *yaxud*

## *səməni Novruzun atributlarından biri kimi*

İlaxır çərşənbələrin yekunu Novruz bayramının gəlişində qərarlaşır. Başqa cür desək, Novruz bayramı ilə İlaxır çərşənbə arasında bir qırmızı xətt var: bu qırmızı zolaq aralıq zonasıdır. Köhnə ilin yekun mərhələlərini özündə təcəssüm etdirən İlaxır çərşənbələrlə yeni ilin gəlişini reallaşdıran Novruz bayramı arasındakı bu aralıq xətti həm də köhnə illə yeni il arasında bir keçid rolu oynayır. İlaxır çərşənbələr sonucda yeni ilin gəlişini - Novruz bayramını şərtləndirir. Bu bayramlar arasındakı qırmızı xətt ayırıcı sərhəd rolu ilə yanaşı həm də birləşdirici körpü rolu oynayır. Bu baxımdan da İlaxır çərşənbənin ayin və mərasimləri ilə Novruz ənənələri demək olar ki, eynilik təşkil etməklə üst-üstə düşürlər. Çünki İlaxır çərşənbə köhnə ilin estafetini təhvil verir, Novruz bayramı da bu estafeti yeni ilə daşımaq üçün ondan təhvil alır. Beləcə, təbiətin ritmik təkrarlanması baş verir. Təsadüfi deyil ki, tədqiqatçı K.Osmanova bu bayramların keçirilməsinin təsvirini verərkən də, demək olar ki, onları iç-içə təqdim edir:

"Novruzun keçirilməsi ilə ələqadar İ.Şıxlının "Dəli Kür" romanında aşağıdakı epizod da maraqlıdır. "Bayram axşamı qapı pusmaq, iynəlik salıb bəxt sınamaq qızların adəti idi. Oğlanlar isə baca-baca gəzərdilər. Onlar balaca heybələrini götürüb damın üstünə çıxar, iplə bacadan içəri sallayardılar. Adət üzrə ev sahibi heybəyə şirniyyat qoymalı idi." (42; 226)

Novruzun əsas atributu səməninin göyərdilməsidir. "Axır çərşənbələr qədəm qoyandan sonra qız-gəlin boşqablara buğda töküb səməni göyərdirlər, kimin səmənisi birinci cücərsə, onun arzuları mütləq yerinə yetəcək". İlin yaxşı, məhsuldar olub-olmamasını onunla qabaqcadan müəyyənləşdirirlər. Arpa göyü şax və yaxşı göyərmiş olursa, deməli, həmin il məhsul bol olacaq, əksinə, o, ölgün və boy atmazsa, qəhətlik gözlənilirdi. Azərbaycan qadınları səməni sulayanda:

***Səməni, saxla məni,***
***İldə göyərdərəm səni. -***
***tipli ovsunlar oxuyurlar.***

Axır çərşənbədə birinci çərşənbədə qoyulan buğdadan göyərmiş səməni təknədə döyülər, suyu çıxarılar və ondan "Səməni həlimi" və "səməni halvası" bişirilərdi. "Səməni həlimi" bir çox yerlərdə axır çərşənbə günü yeddi qapıya paylanardı. Səməni suyundan bişirilən halva isə çox dadlı və xeyirli hesab edilərdi.

Novruz mərasimində mütləq riayət edilən xüsusi ritual da plovun atribut kimi çıxış etməsidir. Bu - düyüyə müqəddəs məhsuldarlıq simvolu kimi yanaşmaqdan irəli gəlir. Bu təamla bərabər, Novruz süfrələrinə şirniyyatla bəzədilmiş xonçaların düzülməsi də vacib sayılır. Fikrimizcə, şəkərbura, badambura aypara şəklinə salınaraq ayı simvolizə edir. Paxlavaya gəlincə isə o, ulduzu simvolizə edir. Şəkərçörəyi, şorqoğal girdə formasında olduğu üçün Günəşə işarədir. Qazaxıstanda isə Novruz bayramının xörəyi olan nouriz-kojedir ki, bu xörək 7 elementdən (duz, su, ət, yağ, un, taxıl və süd) ibarət olur. Bu 7 elementi simvolizə edən şadlıq, uğur, müdriklik, sağlamlıq, firavanlıq, sürət, artım ilahi mühafizə anlamı daşıyır. Belə ki, bayram günü sözügedən ölkənin hər bir ailəsinin ağsaqqalının qarşısına nauruz-koje olan 7 piyalə qoyulmalı, hər kəs 7 evə qonaq getməli və öz evinə 7 nəfər dəvət etməlidir. Əfqanlar isə bu bayramda dəstərxan (yerdə açılan süfrə) qurur və "həft meyvə" kompotu hazırlayırlar. Yəni bu kompot 7 meyvə qurusundan: ərik qurusu, kişmiş, qoz, iydə və sairdən hazırlanır. (40; 122) Göründüyü kimi, 7 rəqəmi sakral element sayılaraq, dünyanın 7 möcüzəsi olması, göy qurşağının 7 rəngli olması və islam dininə görə kainatın 7 mərhələdən yaranması anlamına gəlir. Katoliklərdə də 7 sakral sayılır. Qədim mifologiyalarda da 7 rəqəmi tanrılarla əlaqələndirilmişdir. Məsələn, Misirdə Güneş, Allahı Ra 7 ruhludur. Qədim yunan sivilizasiyasında isə 7 ağıllı adam düşünülmüşdür" (səh. 47-48).



Burada digər xalqlarda da Novruz bayramının keçirilməsilə bağlı maraqlı məlumatlar əksini tapmışdır. Novruzda cücərdilən səməni ilə bağlı "Avesta"dakı səm çiçəyi arasındakı fərqliliklərə isə A.Nəbiyev aydınlıq gətirmək məqsədilə yazır: "Zərdüştün adı ilə bağlı hesab edilən bir sıra rəmzlərin - çiçəklərin, bitkilərin, ağacların həqiqi mənaları xalq arasında daha əvvəl məlum olmuşdur. Bunlardan biri də Səm çiçəyi barədəki təsəvvürlərdir.

"Avesta"da adı qeyd edilən xaom-səm-səm bir sıra hallarda Səmənlə eyniləşdirilir. "Avesta"da "həyat və əbədiyyət" çiçəyi hesab edilən xaom-səm-səm əslində "Kitabi-Dədə Qorqud"da Buğacın yarasını sağaldan Səmdir - dağ çiçəyidir. Bu zərif dağ çiçəyinin ana südü ilə məlhəmi yaraları sağaldır, insanı yenidən həyata qaytarır.

Xalqın vəsf etdiyi Səm çiçəyi baharın gəlişi ilə bağlı göyərdilən suman, səmən, yaxud Səməni deyildir. Səməni - çiçək deyil, baharın gəlişini təsdiqləyən, buna sevinən insanın bolluq və səadət diləyini ifadə edən ilk göyərtidir. Təsadüfi deyil ki, xalq arasında işlənən "buğda göyərtmək" ifadəsi də elə bu görüşlə bağlıdır. Bu məsələdən bəhs edən M.H.Təhmasib haqlı olaraq suman halvasının səməndən deyil, səmənidən hazırlandığını qeyd edir. Səməninin Yasəmənlə əlaqələndirilməsi də bizcə həqiqətə uyğun deyildir. "Səməninin müxtəlif lüğətlərdə "yasim", "yasəm" kimi yazılan "səm"lə heç bir əlaqəsi yoxdur". Səm çiçəyi ilə eyni olduğu güman edilən Yasəmənin də baharın ilk günlərində çiçəkləməsinə təsadüf etmək çətindir. Yasəmən adətən aprelin sonu, mayın əvvəllərində çiçəkləyir, Səm isə qar altından martın əvvəllərində baş qaldıran dağ çiçəyidir. Yasəmənlə bağlı rəvayətlərdən görünür ki, zərdüştilik dövründə Yasəmən müqəddəs hesab edilən çiçəklərdən olmuşdur. İslam xadimləri bu çiçəyi imamın cənazəsinin üstünə tökməklə onun xarakterini dəyişmiş, Yasəməni matəm çiçəyi kimi rəmzləşdirmiş və onu müsəlmanlara haram buyurmuşlar" ( səh. 265-266).

Göründüyü kimi, mərhum professor burada Novruzun əsas atributlarından olan səməni ilə səm çiçəyi, eləcə də yasəmən çiçəyi arasında yaranmış dolaşıqlıqlara aydınlıq gətirmiş, bunların başqa-başqa çiçəklər olduğunu izah etmişdir. Səməni ilə bağlı bu qədər incə təfərrüatlara varmaq isə təbii ki, səməninin Novruzla sıx bağlı olmasından irəli gəlir. Çünki səməni göyərtmək ənənəsi özlüyündə bir sıra simvolik mahiyyətlər daşıyır. Belə ki, səməni bir cücərti olmaqla özlüyündə bolluğu-bərəkəti, həmçinin təbiətin yenidən oyanışını rəmzləşdirir. Bundan başqa, səməni halvası Novruz təamları içərisində xüsusi özəl mövqeyə malikdir. Üçüncüsü, səməni cücərdənlər ürəklərində tutduqları niyyətə müvafiq olaraq arzularının həyata keçib-keçməyəcəyinə inam hissi nümayiş etdirirlər. Dördüncüsü, səməninin yaxşı cücərib-cücərməməsi xalq inancına görə ilin bolluq içində, yaxud qıtlıq içərisində keçəcəyi inamını simvollaşdırır və s. Beləliklə, səməni bitkisi - səməni cücərtmək ənənəsi Novruzla bağlı təsəvvürlərdə mühüm yer tutur, onu sıradan bir bitki-cücərti kimi yox, həm də müəyyən inanc və niyyətlərə bağlı simvol kimi özəlləşdirir. Bu kimi bir sıra xarakterik cizgiləri özlüyündə simvollaşdırdığına görə səməni Novruzun əsas atributlarından biri səviyyəsində düşünülmüşdür.

***Şakir Albalıyev***
***Filologiya elmləri doktoru, dosent***

# Bu gün İlaxır çərşənbədir

**Novruz bayramına artıq sayılı günlər qalıb və təbiət canlanmasını sürətləndirir. Bu dövrdə Novruz çərşənbələrinin sonuncusu - Torpaq çərşənbəsi – xalq arasında xüsusi mərasim kimi qeyd olunur.**

Sonuncu çərşənbə həm ilaxır çərşənbə hesab edilir, həm də Novruz bayramına və yaz fəslinin gəlişinə hazırlıq mərhələsi kimi böyük əhəmiyyət daşıyır. Bu mərasimdə torpaq simvolik olaraq canlanır, yeni həyat və məhsuldarlığın rəmzi kimi təntənəli şəkildə qeyd olunur. Hər il olduğu kimi, bu il də xalq arasında torpaq çərşənbəsinə böyük maraq və hazırlıq müşahidə edilir.

Folklorşünas Şakir Albalıyev Bakıvaxtı.az-a bildirib ki, Novruz çərşənbələrinin sonuncusu torpaq çərşənbəsi kimi qeyd olunur:

"Bu ad torpaq ünsürü ilə bağlıdır. Sonuncu çərşənbədə torpaq "oyanır", cana gəlir və təbiətdə yaz fəsli, bahar, Novruz bayramı ilə əlaqələndirilir. Beləliklə, torpaq çərşənbəsi digər çərşənbələrdən fərqli olaraq Novruz və təbiətin canlanmasının simvolu sayılır".

Müsahibimiz əlavə edib ki, Torpaq çərşənbəsində digər yaradıcı ünsürlər - su, od və yel torpaqla birləşir və yeni həyatı, yazın gəlişini simvollaşdırır:

"Xalq yaradıcılığında torpaqla bağlı müxtəlif metaforik deyimlər də mövcuddur. Məsələn, "Mal etsən malın olar, yazda, yayda çullanar, üç fəsli yalın olar" deyimi torpağın düzgün əkinlə bərəkət verdiyini ifadə edir. Bu deyim torpağın şirinliyini və məhsuldarlığını, həmçinin yaz-yay aylarında yaşıllaşmasını simvolizə edir. Qışda isə torpaq "yalın" olur, yəni çılpaq qalır, bəzəksiz və məhsulsuz olur. Yazın gəlişi ilə torpaq yenidən çullanır, bitki örtüyü ilə bəzənir".

Ş.Albalıyev qeyd edib ki, sonuncu çərşənbə kimi torpaq çərşənbəsinin seçilməsinin səbəbi onun Novruz və yaz fəsli ilə bağlı final mərasimi olmasıdır:

"Bu mərasim çərşənbələrin yekununu təşkil edir və təbiətdə baharın qədəm qoymasının simvoludur. Digər çərşənbələrdən fərqli olaraq torpaq çərşənbəsi daha böyük təmtəraqlı şəkildə qeyd olunur, xalq arasında ona xüsusi əhəmiyyət verilir".

Folklorşünas vurğulayıb ki, bəzi bölgələrdə ilahır çərşənbə "Kiçik Novruz" və ya "Balaca Novruz" adlandırılır:

"Bu ad torpaq çərşənbəsinin Novruz bayramının özünü doğuran mərasim kimi dəyərləndirilməsini göstərir. Beləliklə, torpaq çərşənbəsi Novruz bayramının başlanğıcına və təbiətin canlanmasına hazırlıq mərhələsi kimi xalq arasında böyük önəm daşıyır".

***Torpaqla bağlı atalar sözləri***

"Torpağa əyilən, namərdə əyilməz".
"Torpağa xor baxsan, o sənə kor baxar".
"Torpaq müqəddəsdir".
"Sular həyatlıdir, torpaq bərəkətlidir".
"Torpaq deyər: 'Sən mənə tər ver, mən sənə zər verim!"

***İlaxır Çərşənbə ilə bağlı inanclar***

Bu gün təzə evə köçmək bəd əlamət sayılır.

Axır çərşənbə axşamı küsülülər barışmalıdır.

Bu gecə nəhs sözlər danışmaq olmaz.

Ərə verilən qızı tonqalın ətrafında fırladıb "Qoy odlu-ocaqlı olsun!" deyirlər.

Qeyd edək ki, yaz fəslinin Azərbaycana daxil olması martın 20-si saat 18:45:53-ə təsadüf edəcək.. Bu zaman gecə ilə gündüz bərabərləşir və Günəş düz şərqdə doğub, qərbdə batır.

Torpaq çərşənbəniz, İlaxır çərşənbəniz mübarək olsun!

***Aynur Babazadə***

# Bu gün Od çərşənbəsidir

**Novruzun müjdəçiləri sayılan ilaxır çərşənbələr xalqımızın dünyagörüşündə və inanclar sistemində xüsusi yer tutur. Hər bir çərşənbə təbiətin oyanış mərhələsini, kainatın dörd əsas ünsürünü və insanın yenilənmə arzusunu özündə əks etdirir.**

Bu mərasimlər təkcə folklor nümunəsi deyil, həm də qədim inancların, mifoloji təsəvvürlərin və həyat fəlsəfəsinin daşıyıcısıdır. Çərşənbələrdə icra olunan ayin və rituallar xalqın təbiətlə harmoniyada yaşamaq istəyini ifadə edir. Xüsusilə ikinci çərşənbə kimi qeyd olunan Od çərşənbəsi bu baxımdan daha dərin semantik məna daşıyır və özündə qədim od kultunun izlərini yaşadır.

Beləliklə, Od çərşənbəsinin mahiyyətinə nəzər saldıqda bu ənənənin köklərinin nə qədər qədim və zəngin olduğunu görürük.

Folklorşünas Şakir Albalıyev Bakıvaxtı.az-a bildirib ki, ilaxır çərşənbələrin ikincisi tədqiqatçılar tərəfindən od ünsürü ilə əlaqələndirilir və "Od çərşənbəsi" adı altında qeyd olunur:

"Oda, günəşə, ocağa, işığa tapınmanın əlamətlərini yaşadan bu çərşənbə od kultu ilə bağlıdır. Bəzi araşdırmalarda o, "zərdüşt" inancı ilə əlaqələndirilsə də, Od çərşənbəsinin kökləri daha qədim dövrlərə gedib çıxır. "Zərdüşt" ilə bağlı mərasimlər zamanla bu ənənə ilə qaynayıb-qarışmış, müəyyən elementlər bir-birinə qarışaraq zənginləşib. Od çərşənbəsində hər bir həyətdə tonqallar qalanır, insanlar onların üzərindən atlanaraq "Ağırlığım-uğurluğum odda yansın, keçmişdə qalsın" deyib mənəvi yüngülləşməyə çalışırlar. Bu mərasim təmizlənmə və yenilənmə rəmzi kimi qəbul edilir".

Müsahibimiz qeyd edib ki, tədqiqatlarda Od çərşənbəsi ikinci çərşənbə kimi göstərilir və istiliyin gəlişini simvolizə edir:

"Lakin mənim fikrimcə, ilk çərşənbənin məhz od çərşənbəsi kimi götürülməsi daha məntiqli olardı. Çünki od istiliyə, isti yazın gəlişinə, soyuq qışın sona çatacağına olan inamı təcəssüm etdirir. Hərçənd "hər bir canlını sudan yaratdıq" deyimi mövcuddur. Çərşənbələrin ümumi mahiyyətində od, ocaq və istilik anlayışı xüsusi yer tutur. Od çərşənbəsində həyətdə, bacada, qapıda, kənd və dağlıq ərazilərdə tonqallar qalanır, insanlar gecəni tonqal başında keçirir, səhəri dirigözlü açırlar. Buna bəzi bölgələrdə "çilə çıxarmaq" da deyilir. Gənclər dağlarda, yal və yamaçlarda toplaşaraq tonqal qalayır və şənlik edirlər".

Ş.Albalıyev əlavə edib ki, Od çərşənbəsinin mühüm əlamətlərindən biri də odun rəmzini evə daşımaqdır:

"Çöldə qalanan tonqalların simvolu kimi evlərdə süfrə başında şamlar yandırılır. Bu, oda və ocağa olan inamın ifadəsidir. Bu çərşənbə həm də bir həyat fəlsəfəsi aşılayır. Əksliklərin vəhdəti prinsipinə əsasən, odun həm yaradıcı, həm də dağıdıcı funksiyası var. "Oddan qalar, sudan qalmaz" deyimi də bu anlayışla səsləşir".

Folklorşünas vurğulayıb ki, Od çərşənbəsində əsas məqsəd od ruhunu köməyə çağırmaq, onun yaradıcı gücündən bəhrələnməkdir:

""Od eləyəni fələk də eləyə bilməz" deyimi odun qüdrətini ifadə edir və onu taleyin gücü ilə qarşı-qarşıya qoyur. Beləliklə, Od çərşənbəsinin əsas missiyası odun həyatverici gücünə inamı ifadə etmək, qışın sərtliyindən qurtulub yazın hərarətli nəfəsinə qovuşmaq arzusunu yaşatmaqdır".

***Odla bağlı ata sözləri:***

"Od qalar köz olar, qız qalar söz olar.
Od yanar yerdən tüstü çıxar".

***Odla bağlı inanclar:***

"Çərşənbədə ocağı boş qoymazlar.
Ocaqda kül titrəyəndə od xeyrə oynayır deyirlər".

***Odla bağlı alqışlar:***

"Ocağın bərəkətli olsun.
Ocağın nurlu olsun.
Ocağın odlu olsun.
Ocağına nur çilənsin.
Ocağın sönməsin".

***Odla bağlı qarğışlar:***

Oda düşəsən.
Od-ocağa həsrət qalasan.
Ocağın qazan görməsin.

***Odla bağlı tapmacalar:***

"Evdən - evə qızıl yaylıq" (od ).

Qeyd edək ki, Yel çərşənbəsi martın 10-u, Torpaq (İlaxır) çərşənbəsi isə 17-nə təsadüf edir.

Novruz bayramı günləri 20-24 mart tarixlərini əhatə edəcək.

Od çərşənbəniz mübarək!

***Aynur Babazadə***



# Su çərşənbəsi - fiziki və mənəvi təmizlənmə

**Novruz yaradılış bayramıdır. Yaradılışın da əsasında dörd müqəddəs ünsür - su, od, yel, torpaq dayanır. Novruzun gəlişini əvvəlcədən müşayiət edən ilaxır çərşənbələrin hər birini isə bu yaradılış ünsürünün adı ilə başlamaq səbəbsiz deyildir. Məhz bu yaradılış ünsürlərinin əsasında yeni həyat bərqərar olur, təbiətdə yenidən yaradılış baş verir.**

Çərşənbələrin sıra ardıcıllığı ilə bağlı məsələyə aydınlıq gətirmək məqsədilə AMEA-nın müxbir üzvü, professor, mərhum folklorşünas A.M.Nəbiyev yazır: "Ab-Ataş-Xak-Bad teoloji düzümü də həyatvericilik funksiyalarında çıxış edir. Burada Bad-Yel (hava, nəfəs) sonuncu olaraq həyatvericilik funksiyasından çıxış etməklə - böyük Yaradan sudan, oddan və torpaqdan ibarət Adəm övladına hava verməklə - üfürməklə can verir. İnsan törənişinin digər formulalarında da eyni funksiyalar fəaliyyətdədir. Təbii ki, bu dörd müqəddəs ünsürün sırası teoloji sıra düzümüdür. Yaradanın dünyaya gətirdiyi Adəm övladının Yer üzündə yaşaması üçün zəruri olan şəraitin yaranmasında həmin dörd ünsür yenə aparıcı mövqedədir. Onlar bu məqamda artıq insanlara həyatı davam etdirmək və həyatsevərlik funksiyaları verir. Bununla əlaqədar ritual sistemində teoloji düzüm yenidən sıralanır - su və oddan sonra sıra düzümündə Yel torpaqdan əvvələ keçir. Çünki yazın gəlişi ərəfəsində oyanan və yeniləşən Su, Od, Yel (hava) birlikdə bütün həyatın dirçəldilməsi, yeni əmək mövsümünün başlanması və yeni məhsulun üzə gəlməsinin səbəbkarı olan Torpağı oyatmaq üçün hərəkətə gəlir. Dörd ünsürün üçü dəyişdikdən sonra Torpağın istiləşməsi, oyanması başlayır. Ritual düzümcəsində əkinə sonuncu hazır olan Torpaqla bağlı şənliklər qeyd edilir. Torpağın artıq əkinə yararlı hala düşməsilə dörd müqəddəs ünsürün həyatvericilik funksiyaları bərpa edilir" (səh. 259).

Gördüyümüz kimi, doğruçu çərşənbələrin birincisi su ünsürü ilə əlaqələndirilib, su çərşənbəsi adı ilə qeyd olunur. Su xalqımızın düşüncəsində saflıq, duruluq simvolu kimi müqəddəs hesab olunur. "Qurani-Kərim"də də "hər bir canlını sudan yaratdıq", - deyə bildirilir ki, bu da suyun yaradıcı gücünü dini-mifoloji baxımdan da təsdiqləyir. Su çərşənbəsində də insanlar bulaq başına, su üstünə gedər, orda əl-üzlərini yuyar, səhənglə evlərinə dirilik suyu rəmzi kimi su gətirərlər. Tədqiqatçı Kəmalə Osmanovanın tərtibatçılığı ilə işıq üzü görmüş "Xalq mərasimləri və nəğmələri" kitabında su çərşənbəsilə bağlı oxuyuruq: "suyun ətrafında dövrə vuran adamlar nəğmə oxuyaraq mərasimi belə başa çatdırırdılar:

*Sel çapar, su çapar.*
*Bir günah işlətdim,*
*Gəl onu tut apar.*
*Sel çapar, su çapar,*
*Gəl apar, gəl apar.*

Novruz bayramında bir çox mərasimlərdə suya tapınmanın - su kultunun izləri açıq-aşkar müşahidə olunur. İnanca görə "Novruz bayramında kim gün çıxmamış hamıdan tez bulaxdan su gətirif onunla xamır yoğursa, o evdən bərəkət heş vaxt əskik olmaz." (6;93) Bu su, adi su deyildir. Novruz suyu gün çıxmamış bərəkətverici olub" (səh. 61).

Nəğmənin mətnindən də anlaşılır ki, suyun günahları yuyub aparacağına, insanları təmizə - safa çıxaracağına inam əsas rol oynayır. Belə ki, adi məişətdə sudan fiziki təmizlənmə vasitəsi kimi istifadə etdiyimiz kimi, suyun mənəvi təmizlənmə vasitəsi olduğuna da inanılmışdır. Məhz suya olan bu inamın izləri yuxarıda da qeyd olunduğu kimi, təkcə su çərşənbəsi ilə bağlı ayinlərdə deyil, Novruz bayramında da icra olunan ayinlərdə özünə dərin iz buraxmışdır. Suyun bərəkətverici gücünə inam hissi də, suyun aydınlığa çıxarda bilmək missiyası da xalq təfəkküründə mühüm yer tutur. Suyun şəfaverici gücü ilə bağlı "Qurd və su" adı ilə rastlaşdığımız bir mifoloji mətndə oxuyuruq ki, deyirlər dünyada övladı ilə məşədə yaşayan oğuz oğlu yolda bir qurda rast gəlir. Qurd onun qabağını kəsib yalvarır: "- Ey Oğuz oğlu, gözümün ağı-qarası bir qızım var. Dünən ovçular onun qarnını doğram-doğram eləddilər. İndi gümanım sənədir. Sabah sübh tezdən Buz bulağının suyundan götürüb qızımın yaralarına töksən, sağalar. Mən də sənə borclu qalmaram, Oğuz nəslinə əbədiyyət verərəm.

Oğuz oğlunun ürəyi kövrəldi. Sübh tezdən Buz bulağa gəldi. Gördü adamlar bulaq başına, Su çərşənbəsinə yığışıblar. Oğuz oğlu da su üstündə əl-üzünü yudu. Bir qab su alıb qurd balasının yanına gəldi. Suyu töküb onun yaralarını yudu. Qurd balası gözlərini açdı. Yaraları sağaldı. Dönüb gözəl bir qız oldu.

Qızının sağaldığına qurd sevindi. Qızını Oğuzun oğluna verdi. Qurd dedi:

- Bu izdivac sənə əbədi həyat və qüdrət verəcək, Oğuz oğlu. Sənin oğlundan törəyəcək yeddi oğul yeddi ölkənin qüdrətli xaqanı olacaqdır.

Qurd bu sözləri deyib bir qızına, bir də Oğuzun oğluna baxdı. Sonra da canını Allaha tapşırdı. Oğuz oğlu qurdun qızı ilə evləndi. Ondan dünyaya gələn yeddi igid yeddi xaqan oldu, türkün nəslini yeddi ölkəyə yaydı.

Mifoloji mətndən gördüyümüz kimi, Bozqurdun qızını Buz bulağın suyu - su çərşənbəsində Buz bulaqdan götürülən suyun şəfaverici möcüzəsi sağaldır və qıza dirilik bəxş edir. Üstəgəl, bu dirilmə həm də oğuz oğlunun evlənməsi, ondan törəyən yeddi oğulun yeddi ölkənin qüdrətli hökmdarı olmasına vəsilə olur. Bu motiv də əslində Oğuz oğlunun yenidən yaradılışı şəklində - evlənməsi və dünyaya gələn övladlarının hakimiyyət sahibi olmaları şəklində reallaşır: "Oğuz nəslinə əbədiyyət verilir".

Gördüyümüz kimi, bu mifoloji mətndən çıxan məntiqi nəticə də, çərşənbə rituallarında icra olunan ayinlər, oxunan mərasim nəğmələri də - bütün bunlar hamısı suyun yaradıcı gücünə olan fövqəlinamı özündə əks etdirir.

***Əlifoğlu Şakir***
***Filologiya elmləri doktoru, dosent***

# Yel çərşənbəsi - yaradıcı gücün funksionallaşması

Yel yaradılış ünsürü kimi əski təsəvvürlərdə kult səviyyəsində müqəddəs tutulur, hətta Tanrı kimi də düşünülürdü. İlaxır çərşənbələrin 3-cüsü (bəzənsə sonuncusu) kimi qəbul edilən yel çərşənbəsi Yelin yaradıcı (və eyni zamanda dağıdıcı) gücünə olan böyük inamı özündə təcəssüm etdirir. El arasında mövcud olan Ağ yel, Qara yel ifadələri də dialektika qanunlarına müvafiq olaraq yelin təbiətindəki fərqlilikləri - dağıdıcı və yaradıcı gücü özündə təcəssüm etdirməsi inancları ilə səsləşir. Elə Yel çərşənbəsinə xas ayin və rituallarda da Yel tanrısının ruhu əzizlənir, yel baba çağırışı ilə ona ricalar edilir, onu rəhmə gətirmək və insanlara, külli-aləmə qarşı yelin yaradıcı gücünü səfərbər edib yönləndirməsi ilə bağlı çağırışlar edilir. Professor Azad Nəbiyevin "Azərbaycanda Novruz" kitabında verilən "Yel baba şivənləri" adlı lirik ricətlərdə də yel ruhundan nicat-imdad dilənilir:

*... A Yel baba,*
*Yaranal atdı gəldi,*
*Atı qanatdı gəldi.*
*Suya gedən Nərgizim*
*Qanına batdı gəldi...*
*Şaxsey-vaxsey!*
*Vaxsey-şaxsey!*
*... A Yel baba,*
*İpim ipdən üzüldü,*
*İpim dibdən üzüldü.*
*Bircə gündə min cavan*
*Qara qəbrə düzüldü!*
*Şaxsey-vaxsey!*
*Vaxsey-şaxsey!*
*Ay dili yellilər,*
*Ay əli bellilər,*
*A firəng dillilər,*
*Günüm yel oldu, yel oldu,*
*Gözlərim sel oldu, sel oldu.*
*Şaxsey-vaxsey!*
*Vaxsey-şaxsey!*
*A Yel baba,*
*Kürsülərə yatdılar,*
*Araları qatdılar,*
*Torpağımı satdılar,*
*Muradlara çatdılar.*
*Şaxsey-vaxsey!*
*Vaxsey-şaxsey!*
*... A Yel baba,*
*Səmum kimi əsdilər,*
*Cırğaları kəsdilər,*
*Səhərəcən qırdılar,*
*Demədilər "bəsdilər".*
*Qanım sel oldu, sel oldu*
*Selim göl oldu, göl oldu.*
*Şaxsey-vaxsey!*
*Vaxsey-şaxsey!*
*... A Yel baba,*
*Elimi-günümü bəklədilər,*
*Torpağımı ləklədilər,*
*Eldən ayırıb təklədilər.*
*Halım nə yaman, nə yaman,*
*Aman, ay aman, ay aman.*
*Şaxsey-vaxsey!*
*Vaxsey-şaxsey!*
*(səh. 183-184).*

Mətndən göründüyü kimi, burada Yel babaya sosial düzəndəki ədalətsizliyə görə şikayət edilir. Bu da bir daha təsdiq edir ki, insanlar əziz gündə - yel çərşənbəsində olduğu kimi, qeyri vaxtlarda da yel babadan kömək istəmiş, dərdlərinə əlac qılmalarına inanmışlar. Başqa cür desək, üstlərindən qara yel əsən insanlar yaman duruma düşmüş, elləri-yurdları talan edilmiş, viran olmuşdur. Buna görə də Yel babaya iltimas yolu ilə qara yeli üstlərindən bir daha əsdirməməyi, şəri-bəlanı başları üstündən götürməyi arzulayırlar. Yəni insanlarda Yelin dağıdıcı gücündən xilas olmaq və yaradıcı gücündən yararlanmaqla ağ günə - xoşbəxtliyə yetişmək arzusu Yel çərşənbəsinin əsas missiyasıdır. "Kürdoğlu" adlı inanclar mətnində insanların yel ruhunun xeyirxahlığı müqabilində qarının oğlunun tufandan sağ çıxması inamı əks olunmuşdur:

"Qışda Böyük Çillədən 4 gün qalanda və Kiçik Çillənin əvvəl 4 günlüyünü xeyirli günlər sayırdılar. O 8 günün içində Allah-təalanın icazəsi ilə yerə gizli nəfəs gəlir və yer bala-bala buğlanır, qar əriyir. Böyük çillədən 10 gün qalan günlərə deyirlər "Kürd oğlu"dur. Bu günlərdə havada külək olur.

Kürdoğlu günləri və adı barədə bir rəvayət vardır. Deyirlər bir "Kürd oğlu" varmış. Onun anası istəyir onu evləndirsin. Şama qonaq çağırır və oğlundan istəyir ki, getsin qonşu kənddən qazan gətirsin. Oğlan gedir, qazanı alır və evlərinə sarı yollanır. Yolda külək başlayır. Kürdoğlu görür ki, külək tezliklə kəsilən deyil. Yerə əyləşir və qazanı başına çevirir. Səhərə kimi bu halətdə qalır. Səhər adamlar dalınca gedir. Yerə baxa-baxa gedirmişlər ki, onun ölüsünü tapsınlar. Görürlər ki, bir yerdə qaraltı görsənir. Yaxınlaşıb görürlər ki, Kürdoğlunun nəfəsindən qazanın həndəvəri bir az ərgindir. Yol açır və onu diri görürlər. Sonra anasına muştuluq aparırlar. Anası deyir ki, mən saçımı suya salmışdım, amma saçım donmamışdı. Mən bundan bildim ki, oğlum üçün bir xətər yoxdur. Əgər donsa idi, xətərli ola bilərdi. Sonra da oğluna toy tuturlar. Ona görə də bu günləri Kürdoğlu günləri adlandırırlar."

Göründüyü kimi, burada qışın şaxtalı nəfəsi olan yel ruhu qarının oğlunu donmağa qoymur. "Allah-təalanın icazəsi ilə yerə gələn gizli nəfəs" - yəni xeyirxah yel ruhu gənci donmaqdan xilas edir və sonra da oğlana toy edirlər - bununla da gənc evlilik statusundan yeni bir həyat mərhələsinə adlayıb dirilik tapır.

Bu mifoloji rəvayət də bir daha yelin dondurucu-dağıdıcı gücü ilə yanaşı dirilik gücü sahibi olduğunu təsdiqləyir. Heç təsadüfi deyil ki, xalqımız tərəfindən yelin bu ikili xassəsi ilə bağlı bayatılarla yanaşı ağı nümunələri də düzülüb-qoşulmuşdur.

*Dağdan yel əsir yenə,*
*Səbrimi kəsir yenə.*
*Getdin, məni eylədin*
*Yolunda əsir yenə.*

bayatısında lirik mən düşdüyü çətin vəziyyəti (əsir-yesir hala düşməyini) ilk misradakı "dağdan yel əsir yenə" ifadəsi ilə yel ruhunun əsib-coşan qəzəbi ilə əlaqələndirmişdir.

*Yel əsər, toz qoparar,*
*Ağacdan qoz qoparar.*
*Yellə gələn bəlanı*
*Yel özü də aparar, -*

tipli bayatı nümunəsində isə yelin ikili təbiəti birbaşa ifadə olunur: "yellə gələn bəla" - yelin dağıdıcı sifətini göstərdiyi kimi, "yelin özünün də gətirdiyi bəlanı çəkib aparması" məntiqi də yel ruhunun xeyirxah simasını açıb göstərir. Yel çərşənbəsinin də mahiyyətində Yel ruhunun yaradılış simvolikası funksionallaşır.

***Şakir Albalıyev***
***Filologiya elmləri doktoru, dosent***

# Bu gün Yel çərşənbəsidir

**Novruz bayramı ərəfəsində qeyd olunan çərşənbələr xalqımızın qədim dünyagörüşünü, təbiətə münasibətini və yaradılış haqqında təsəvvürlərini özündə əks etdirir. Bu çərşənbələrin hər biri təbiətin əsas ünsürlərindən biri ilə bağlı olub, insanların həyatında mühüm məna daşıyır.**

Su, od, yel və torpaq kimi ünsürlər xalq inancında həm həyatın başlanğıcı, həm də təbiətin oyanışının rəmzi hesab olunur. Bu baxımdan Novruzun üçüncü çərşənbəsi olan Yel çərşənbəsi də xüsusi məna və inanclarla yadda qalır. Yel çərşənbəsi ilə bağlı xalq arasında formalaşmış inanclar, ayinlər və folklor nümunələri isə qədim dövrlərdən bu günə qədər yaşadılmaqdadır.

Folklorşünas Şakir Albalıyev Bakıvaxtı.az-a açıqlamasında bildirib ki, Yel çərşənbəsi, məlum olduğu kimi, yaradılış ünsürlərindən biri olan yel ruhu ilə bağlıdır:

"Yel ruhu, Yel baba və yelə edilən istəklər, inam və etiqad əlaməti kimi xalq düşüncəsində öz əksini tapır. Bəzi mənbələrdə və dini kitablarda yelin tanrı kimi qəbul edilməsi barədə fikirlərə də rast gəlinir. Bütün bu yanaşmaların əsasında isə yelin fövqəl gücünə olan inam dayanır. Yel baba, tanrı və ya yel ruhu kimi vəsf olunmasından asılı olmayaraq, bütün bu təsəvvürlərin kökündə yelin həm yaradıcı, həm də dağıdıcı gücə malik olması haqqında inam dayanır".

Folklorşünas qeyd edib ki, Yel çərşənbəsində əsas məqsəd də məhz Yel babaya, yel ruhuna müraciət edərək onun dağıdıcı deyil, qurucu və həyatverici funksiyasını ön plana çıxarmaqdır:

"Bu səbəbdən insanlar yel çərşənbəsi ilə bağlı müxtəlif ayinlər, mərasimlər və rituallar keçirir, nəğmələr oxuyur, müxtəlif şəkildə xalq yaradıcılığı nümunələri ilə Yel babanı razı salmağa çalışırlar. Bayatılarımızda da yellə bağlı çoxsaylı deyim və mətnlərə rast gəlinir. Məsələn:

*Dağdan yel əsər yenə,*
*Səbrimi kəsər yenə.*
*Getdin, məni eylədin,*
*Yolunda əsər yenə".*

Müsahibimiz əlavə edib ki, bəzi tədqiqatçılar bu cür nümunələri fikrin ifadəsi üçün qurulan poetik vasitə kimi qiymətləndirsələr də, bayatıda dərin məna gizlənir:

"Burada dağdan əsən yelin aşiqin səbrini kəsməsi obrazı verilir. Sevgi və məhəbbətin səbir tələb etdiyi məlumdur. Lakin yelin əsməsi ilə səbrin kəsilməsi bir araya gətirilərək, dağdan əsən yelin aşiqin səbirini dağıtması kimi təqdim olunur. Bu isə yelin sanki dağıdıcı xüsusiyyətini önə çəkən poetik bir təsvir yaradır. Bəzən sual olunur ki, burada əkinçilikdən və taxılın biçilməsindən danışılırsa, bunun çərşənbə ilə nə əlaqəsi var. Əslində isə yer, su, od və yel kimi yaradıcı ünsürlərin birləşməsi yeni həyatın, yeni yaradılışın başlanğıcı hesab olunur. Buna görə də bəzi mərasimlərdə yelin yaradıcı gücündən kömək istənilməsi məqsədi də özünü göstərir".

Ş. Albalıyev vurğulayıb ki, bu mərasimlərdə oxunan nəğmələr də əsasən təqlidi xarakter daşıyır:

"Yəni insanların məqsədi yelin ruhunu oxşamaq, onun yaradıcı gücünü özlərinə cəlb etmək və bu gücdən faydalanmaqdır.

Beləliklə, yel çərşənbəsinin əsas məğzi təbiətin yaradıcı qüvvələrini – xüsusilə də yelin həyatverici gücünü köməyə çağırmaq və yeni həyatın başlanğıcına inamı ifadə etməkdən ibarətdir".

Qeyd edək ki, Torpaq (İlaxır) çərşənbəsi isə matrın 17-nə təsadüf edir.

***Aynur Babazadə***



ULU XUDAFƏRİN

# Od çərşənbəsi - od kultunun yaşayan izləri

**Tədqiqatçıların Novruz çərşənbələrinin ikincisi hesab etdikləri Od çərşənbəsi ta qədimdən xalqımızın günəşə, oda-atəşə tapınma inamını özündə əks etdirir. Həyət-bacalarda tonqal qalamaqla, evlərdə şam-çıraq yandırmaqla oda-işığa, ocağa müqəddəs baxışlarımız ifadə olunur. Tonqalın üstündən atlanmaqla nə ki azar-bezarımız varsa, hamısının odda yanıb kül olmasına inancımızı, xəstəliklərdən xilas olmağımıza ümidimizi dilə gətiririk.**

Bütün bu kimi odla-ocaqla bağlı icra olunan ayinlərimiz, mərasimlərimiz od kultunun ta qədimdən günümüzədək yaşadığının bariz göstəricisidir. Od çərşənbəsi də odun-işığın şərəfinə keçirtdiyimiz unikal mərasim hadisəsidir. Od kultunun izləri təkcə bayramlarımızda deyil, xalq həyatının müxtəlif sahələrində özünü təcəssüm etdirməkdədir. Atalar deyimləri qəlibində odla bağlı saysız-hesabsız nümunələrimiz var: Od imandandır; Od qalar köz olar, qız qalar söz olar; Od küldə gizlənər; Od görsən getmə, köpək səsi eşitsən get; Od qalayıb oda düşmüşük; Odla zarafat eləyən ağlar qalar; Odsuz ocaq olmaz; Od düşdüyü yeri yandırar; Oda yanmayan balasına da yanmaz; Od yanan yerdən tüstü çıxar; Od ocaqda yanar; Od deməknən ağıza od düşməz; Odla oynayan odsuz qalar; Od olan özünü yandırar; Od eləyəni fələk eləyə bilməz və s. Bu tipli deyimlərdə sözün həm həqiqi, həm məcazi, həm də metaforik-fəlsəfi anlamlarında odla bağlı mühüm fikirlər əks olunmuşdur. "Od eləyəni fələk eləyə bilməz" məsəlində isə odun gücü fələyin gücü ilə müqayisədə verilmişdir. Yaxud da "odla oynayan odsuz qalar" deyimində odla oyun oynayan - başqa sözlə, odu saya saymayan, oda qarşı saymazlıq - etinasızlıq göstərən kəsin axırda odsuz-işıqsız, ocaqsız qalacağı inamı - ideyası öz əksini tapmışdır və s. ki, bütün bu atalar deyimlərinin də hər birində oda qarşı həssas - sayğılı münasibət bəsləmək məsələsi tövsiyə olunur. Bu deyimin digər bir formasında isə fikir daha açıq şəkildə ifadə olunub: "Odla zarafat eləyən ağlar qalar." Burada iki məna paraleli özünü göstərir: 1) odla zarafat eləsən, od yanğına səbəb olmaqla fəsad törədər; 2) odun mifik missiyasına uyğun olaraq odla zarafat eləyib ona sayğısız olsan, od ruhu səndən inciyər və mənəvi baxımdan ziyan görərsən xəbərdarlığı burada özünü göstərir.

Bu minvalla atalar sözləri və deyimləri vasitəsilə də od kultunun izləri özünü ya açıqcasına, ya da üstüörtülü formada yaşatmaqdadır. "Oğlanqala" adlı rəvayətdə də odla-ocaqla bağlı real və mifik görüşlər iç-içədir:

"Arpaçayın sahilində iki tayfa yaşayırmış. Bunlar həmişə torpaq üstündə savaşırmışlar. Hərəsindən nə qədər adam ölmüşdü, ta bunlar qanlı olmuşdular.

Bunlardan bir tayfa başçısının igid bir oğlu, o yankı tayfa başçısının gözəl bir qızı varıydı. Bir gün oğlan yenir çayın qırağına. O biri tayda qızı görür, bir könüldən min könülə ona aşiq olur. Qız da oğlana vurulur. Oğlan üzüb gəlir qızın yanına. Razılaşırlar ki, hər gecə görüşsünlər. Görüşdən qabaq oğlan Qaratəpə dağında tonqal qalamalıydı. Qız da bu tayda bir ocaq yandırmalıydı ki, səni gözləyirəm. Sonra razılaşırlar ki, hər kəs əhdinə vəfasız çıxsa, özünü oda atıb yandırsın.

Bir minvalla onlar bir müddət görüşürlər. Ancaq bir gün oğlan tonqal qalayır, ha gözləyir o tayda ocaq yanmır. İkinci gecə də o tayda işıq görsənmir. Üçüncü gün oğlan o taydan şənlik səsi eşidir. Anlayır ki, qızın toyudur. Fikirləşir ki, ta mən onsuz niyə yaşayıram? Tonqalı daha da gur edir, özünü atır odun içinə. Ancaq axı o, vəfasız çıxmamışdı, qız vəfasız çıxmışdı. Ona görə oğlan odda yanmır. Ağ daşa çevrilib qalır burada. O vaxtdan oğlanın yaşadığı yerə Oğlanqala, qızın yaşadığı yerə Qız qalası deyirlər. Oğlanqalada ağ daş indi də durur. Hər il Novruz bayramında camaat bu ağ daşa qurban kəsir, onun yanında od qalayır."

Bu rəvayətdə tonqal həm də maddi işarə vasitəsi kimi odun-ocağın nişanverici (yolgöstərici) funksiyasını özündə reallaşdırır, həm də ki, sevən oğlanın özünü odda-tonqalda yandırmaq istəməsi müqabilində tonqalın - odun onu yandırmaması timsalında mifik tapınma - od kultu kimi özünü göstərir. Üstəlik də ki, əhdinə vəfalı oğlan özünü oda atmaqla oddan doğulur - ağ daşa çevrilib, camaatın qurbangah kimi seçdiyi müqəddəs bir ünvana dönüb əbədiyaşarlıq qazanır ki, bu da od kultunun yaradıcılıq simvolikasını özündə əks etdirir.

Beləliklə, misallar gətirdiyimiz ayrı-ayrı xalq yaradıcılığı örnəklərindən də oda tapınmanın əlamətlərini müşahidə edirik ki, od çərşənbəsi də öz maliyyətində od kultuna inamın mərasimi formada əlamətlərini yaşadır.

***Şakir Albalıyev***
***Filologiya elmləri doktoru, dosent***

# Torpaq çərşənbəsi - torpağın əzizlənməsi mərasimi

**İlaxır çərşənbələrin dördüncüsünü, yəni sonuncusunu Torpaq çərşənbəsi kimi qəbul edən mərhum folklorşünas Azad Nəbiyev bunu ritual sistemi ilə əlaqələndirir, ritual sistemində teoloji düzümdəki sıra ardıcıllığında yer və yel çərşənbələrinin yerlərini dəyişməsini və bu zaman "yelin torpaqdan əvvələ keçdiyini" göstərir. Alim bunu "yeni əmək mövsümünün başlanması ilə yeni məhsulun - bərəkətin baş verməsi üçün münbit zəmin olan torpaq" amili ilə əlaqələndirir. Başqa sözlə, bunu belə başa düşmək olar ki, sonuncu çərşənbə məhsuldarlıq fəsli olan yazın gəlişinə zəmin yaradırsa, məhsuldarlığı da təmin edən - məhsulu yetişdirən də torpaqdır. Bütün bolluq, bar, bərəkət torpağın üstündə bərqərar olur. Bu səbəbdən də professor A.Nəbiyev sonuncu çərşənbənin Torpaq ünsürü ilə bağlanmasını ritual düşüncə ilə əlaqələndirir.**

Xalqımızın düşüncəsində həmişə torpaq müqəddəs tutulub. Torpaq çərşənbəsində torpağı mərasimi hadisə fonunda əzizləyən xalqımız müxtəlif folklor janrlarında da torpaqla bağlı müqəddəs görüşlərini ifadə etmişdir. Atalar sözləri qismində ta qədimdən dövrümüzədək gəlib çatan sonsuz sayda deyimlərimiz də bunun bir sübutudur: Torpaqdan pay olmaz; Torpağa əyilən namərdə əyilməz; Torpaq qızılquşdur, əldən buraxdın - uçar gedər; Torpaqda əlləşən xoşbəxtliklə rastlaşar; Torpaq əkinçinin zəhmətilə zinətlənər; Torpaq deyər: - öldür məni, dirildim səni; Torpağa var versən, o da sənə bar verər; Torpaq deyər: - sən mənə tər ver, mən sənə zər verim; Torpağa göz ağardanda üz ağardar və s. Bu tipli nümunələrdə həm sözün həqiqi mənasında real hökmlər şəklində fikirlər ifadəsini tapıb, həm də torpaq təşxisləndirilmiş halda canlı bir ruh olaraq təqdim olunub. Belə ki, torpağa əyilsən, namərdə əyilməzsən deyimində, yaxud torpaqla əlləşən xoşbəxtliklə rastlaşar kimi deyimlərdə insanların torpaqla ülfət bağlamaları, zəhmətə qatlaşıb torpağı əkib-becərmələri sayəsində namərdə möhtac olmamaqları, səadətə yetəcəkləri və s. kimi nəcib fikirlər aşılanır. Torpaq qızılquşdur, əldən buraxdın - uçar gedər deyimində isə fikir metaforik planda verilib; belə ki, torpaq qızıl quşa bənzədilib, vaxtında qulluq etməsən, qayğı göstərməsən, əkib-becərməsən, qızılquş kimi əlindən uçub çıxar, həmin mövsüm diləngi gününə düşüb ac qalarsan. Yaxud torpağın keşiyini vətəndaş kimi çəkməsən, düşmən işğal edər, vətənsiz yesir gündə qalarsan. "Torpağa göz ağardanda, üz ağardar" deyimi də məcazi şəkildə olub, torpağın üstündə göz olmağı, gözünü diqqətlə torpağa zilləməli, torpağı qorumalı, əkib-becərməli olmağın vacibliyi aşılanır ki, sabah torpağın da yanında, vətənin də qarşısında, külfətinin də yanında üzüağ, başıuca ola biləsən və s.

Torpaqla bağlı andlar, alqışlar (həmçinin qarğışlar) da xalqımızın yaradıcılıq ünsürü olaraq torpağa müqəddəs baxışlarını ifadə edir: Torpaq haqqı! Yer haqqı! Torpağı sanı yaşayasan! Torpağın həmişə gül bitirsin! Torpağın yada qismət olmasın! Torpağından qara yellər əsməsin! Torpağın həmişə bar yetirsin! Torpağı bərəkətli olsun! Torpağına göz dikənin gözü tökülsün! Torpağını göz bəbəyi kimi qoru!

Məlumdur ki, insanlar müqəddəs bildiyi şeylərə and içərlər. Xalq təfəkküründəki yuxarıdakı and və alqış nümunələri də torpaqla bağlı ülvi və müqəddəs baxışların əksetdiricisi kimi düşünülmədir. Torpaqla bağlı söylənən qarğış nümunələri də torpaq müqəddəsliyi ilə bağlı olub, həmin müqəddəs torpaq ünsürünə həsrət qalmaq və s. kimi bədduaları özündə əks etdirir:

Torpağını torba ilə daşısınlar; Torpağında ağac bitməsin; Torpaq başına tökülsün; Torpağında ancaq qanqal bitsin; Səni torpağa tapşırmışam; Torpaq üzünə həsrət qalasan; Səni qara torpağa basdırım. və s. tipli qarğış nümunələrində torpağın yaradıcı - məhsuldarlıq gücündən məhrum olmaq kimi nəhs duyğular ifadə olunub.

Tədqiqatçı K.Osmanova "Xalq mərasimləri və nəğmələri" kitabında yazır:

"Mövsüm mərasimləri sırf təqvimi tarixlərə bağlanan bayramlarla və bu bayramlarda icra edilən törən və rituallarla məhdudlaşmayaraq, fərqli məqsədlərə xidmət edən bir qisim ayinləri də əhatə edir. Belə ki, bu ayinlər ehtiyac olduğu zaman həyata keçirildiyindən sırf okkazional səciyyə daşıyırlar. Amma təbiət qüvvələri və onlara təsir göstərmək istəyi bu mərasimlərdə mühüm rol oynadığından onlar da mövsüm mərasimlərinə daxil edilir" (səh. 74).

Bu baxımdan ilaxır çərşənbədə, eləcə də Novruz bayramında Kosaya, eləcə də Qoduya müraciətlə söylənən nəğmələr də maraq doğurur:

*Ay Kos-Kosa, gəlmisən,*
*Gəlmisən meydana sən.*
*Almayınca payını,*
*Çəkilmə bir yana sən.*
*Beş yumurta payındı,*
*Olmaya aldanasan.*

*Mənim kosam oynayır,*
*Gör necə dingildəyir.*
*Qulaq asanların da*
*Qulağı cingildəyir.*

*Mənim kosam canlıdı,*
*Qolları mərcanlıdı,*
*Kosama əl vurmayın,*
*Kosam yazıq qanlıdı.*
*Əmiri börk başında,*
*Qələm oynar qaşında.*
*Yüz əlli beş yaşında -*
*Lap cavan öldü Kosa.*

### QODU, QODU, DURSANA

*- Qodu, Qodu, dursana!*
*Çömçəni doldursana!*
*Qodunu yola salsana!*
*- Allah! Allah!*

*- Qodu palçığa batmışdı,*
*Qarmaladım çıxartdım.*
*- Allah! Allah!*

*- Qara toyuq qanadı,*
*Kim vurdu, kim sanadı?*
*Eşik-eşik gəzəndə,*
*Baldırın it daladı.*
*- Allah! Allah!*
*- Dağda dana böyürdü,*
*Yengə ana yüyürdü.*
*Yengə ana çatıncan,*
*Heyvan öldü, böyürdü.*
*- Allah! Allah!*

*- Verənin oğlu olsun,*
*Verməyənin qızı olsun!*
*Adı Fatma olsun!*
*Qaşları çatma olsun!*
*O da çatdasın, ölsün!*
*- Allah! Allah!*

Yarızarafat, yarıciddi planda oxunan bu nəğmələrdə xalqın öz bayramını şənşux bir əhval-ruhiyyə ilə keçirmək istəyi göz önündədir. Əlbəttə, bu tipli nəğmələri (eləcə də tamaşaları) bayram ritualından kənarda keçirmək, icra etmək hardasa məntiqsiz görünər. Bunlar çərşənbə rituallarının tərkib hissəsi olmaqla ümumxalq sevincinin ifadəsidir və özlüyündə müəyyən xarakterik cəhətləri simvollaşdırırlar. Bayram isə elə nəhəng mədəni hadisədir ki, bütün xalq kütləsi özünü həmin şənliyin içində görə bilir.

***Şakir Albalıyev***
***Filologiya elmləri doktoru, dosent***

# Novruzun ilk müjdəçisi: yalançı çərşənbə

**Novruz bayramının yaxınlaşması ilə birlikdə xalqımızın qədim adət-ənənələri də yenidən yada düşür. Bu bayramın əsas mərhələlərindən biri olan ilaxır çərşənbələr xüsusi mənəvi və fəlsəfi məna daşıyır.**

Hər çərşənbə xalqın təbiətə, həyata və yenilənməyə münasibətini ifadə edir. Bu çərşənbələr sırasında zamanla unudulmağa üz tutan mərasimlər də var ki, onlardan biri də yalancı çərşənbədir.

Folklorşünas Şakir Albalıyev Bakıvaxtı.az-a açıqlamasında bildirib ki, Novruz bayramını ilaxır çərşənbələr müşayiət edir və bu çərşənbələr Novruzun ayrılmaz tərkib hissəsidir. Onun sözlərinə görə, Novruz bayramını ilaxır çərşənbələrdən ayrı təsəvvür etmək olmaz:

"Əgər Novruz xalqın həyata və dünyaya baxışını ifadə edirsə, ilaxır çərşənbələrin mahiyyətində də dünya, yaradılış və yeni həyat haqqında fəlsəfi təsəvvürlər kompleks şəkildə özünü göstərir".

Çərşənbələr iki qrupa bölünür. Əvvəlki tədqiqatçılar da bunu qeyd ediblər: yalancı çərşənbələr və doğruçu çərşənbələr. Bu bölgü həyatın gerçəkliyi ilə səsləşən bir təsnifat və adlandırmadır. Necə ki, yalanın qarşısında doğruluq, işığın qarşısında qaranlıq, gecənin qarşısında gündüz varsa, eyni şəkildə yalancı çərşənbələrin mövcudluğu da təbii qəbul edilir.

Müsahibimiz qeyd edib ki, son vaxtlar unudulan adət-ənənələrdən danışarkən, yalancı çərşənbənin adı çəkilir:

"Çünki yalancı çərşənbə əsasən Qarabağ bölgəsində qorunub saxlanıb. Eyni zamanda Qərbi Azərbaycan dediyimiz ərazilərdə, indiki Ermənistan ərazisində yaşamış soydaşlarımız tərəfindən də icra edilirdi. Lakin qaçqınlıq və məcburi köçkünlük dövründən sonra insanlar öz yurd-yuvalarından didərgin düşdülər, bu bayramları əvvəlki kimi keçirmək mümkün olmadı. Nə şərait vardı, nə də uyğun məkan. Buna görə də yalancı çərşənbə tədricən unudulmağa başladı". Şakir Albalıyev əlavə edib ki, 1993-cü ilə qədər ümumilikdə Qarabağ bölgəsində yalancı çərşənbə qeyd olunurdu:

"Bu, doğruçu çərşənbələrdən əvvəl keçirilən bir mərasim idi. Adından da göründüyü kimi, daha sakit və təvazökar ovqatda keçirilirdi. Böyük, təmtəraqlı tonqallar qalanmırdı. Hər kəs öz həyətində küləşdən və ya xırda odunlardan kiçik, simvolik bir ocaq yandırırdı. Qonum-qonşu bir yerə toplaşar, hal-əhval tutar, səmimi söhbətlər edərdi. Bu tonqal uzun çəkməzdi, daha çox rəmzi xarakter daşıyardı".

Folklorşünasın dediyinə görə, yalançı çərşənbənin xüsusi əhəmiyyəti ondan ibarət idi ki, o, doğrucu ilaxır çərşənbələr üçün bir mesaj, bir işarə sayılırdı:

"Sanki əsas çərşənbələrin başlanğıcına zəmin hazırlanırdı. İnsanlar qışın bitəcəyinə, yazın gələcəyinə, ümid və arzularının gerçəkləşəcəyinə inanaraq bu günü qarşılayırdılar. Bu mənada yalancı çərşənbə ümidin və inamın simvolu kimi yaşadılırdı".

***Aynur Babazadə***

*Nəriman Əsədov - 75*

# Elimizin bəxtiyar ağsaqqalı



**Ulu öndər Heydər Əliyev ağsaqqalları xalqımızın mənəvi sərvəti adlandırırdı. Doğrudan da, ağsaqqal və ağbirçəklərimiz havayı yerə saç-saqqal ağartmayıblar. Keçib-gəldikləri keşməkeşli həyat yollarını dönə-dönə öz ömürlərində təcrübədən keçirib, hətta bu təcrübi dünyagörüşlərini atalar sözləri və zərbi-məsəllər şəklində bugünkü və gələcək nəsillərə bir yaşam örnəyi - həyat düsturu olaraq ötürüblər.**

Əbəs deyil ki, "Bağbansız sahəni alaq, sahibsiz evi toz, aslansız meşəni tülkü, başsız ailəni fəsad, ağsaqqalsız cəmiyyəti fitnə basar", - deyiblər. Bu fikirlərdən də doğan önəmli məntiq odur ki, ağsaqqallar-ağbirçəklər cəmiyyətdə və eləcə də ailədə mənəvi tarazlığı qoruyub-saxlayan əvəzolunmaz mənəvi qüvvədir. Zümrüd İbrahim qızı Mənsimova "Azərbaycan folklorunda əcdad kultu və onun transformativ paradiqmaları" (Bakı - 2026) adlı doktorluq dissertasiyasında yazır ki, "Əcdadlar xalqın mifik düşüncə yaddaşında xalqı doğru yola çəkən, haqqı nahaqdan ayırmağa sövq edən, xalqın dar və xoş günlərində yanında olan müqəddəs və xilaskar sələfləridir" (səh. 21).

Bu məntiqdən yanaşdıqda, ağsaqqallar da əcdad kultunu bu gün bizimlə birgə real olaraq yaşadan canlı varislərdir. Belə ağsaqqallardan biri də bizim Nəriman müəllimdir ki, onun haqqında 2011-ci ildə "Ailədə və eldə ağsaqqal", 2021-ci ildə isə "Varı-dövləti xətir-hörmət olan kişi" adlı yazılarla mətbuatda çıxışlar etmişəm.

Əsədov Nəriman Şirvan oğlu 1 aprel 1951-ci ildə Cəbrayıl rayonunun Şükürbəyli kəndində anadan olub. 1957-1967-ci illər doğulduğu kənddə orta məktəb təhsili alıb. 1967-ci ildə Gəncə şəhərindəki S.Ağamalıoğlu adına Kənd Təsərrüfatı İnstitutunun mexanikləşdirmə fakültəsinə daxil olub, 1973-cü ildə mühəndis-mexanik ixtisasına yiyələnib.

Nəriman Şirvan oğlu Əsədov 1970-ci ilin avqustundan 1973-cü ilin iyununadək 836 saylı Yol Tikinti İdarəsində çilingər, 1973-cü ilin iyulundan 1976-cı ilin sentyabrına qədər isə 32 saylı Yol İstismar İdarəsində mühəndis-mexanik işləyib.

1976-1983-cü illər ərzində 131 saylı Texniki peşə məktəbində müəllim işləyən Nəriman Əsədov 1983-cü ilin mayından 1987-ci ilin iyununa kimi - 4 il Cəbrayıl rayon Aqrar Sənaye Birliyində baş mühəndis kimi fəaliyyət göstərir.

1987-ci ilin iyununda Şükürbəyli kənd Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri seçilib. 1992-ci ilin yanvarından 2021-ci ilə kimi isə RİH-nin Şükürbəyli kənd ərazi nümayəndəliyində nümayəndə işləyib.

Onu da qeyd edək ki, 1990-cı ildə kənd sovetinin deputatı olmaqla həm də rayon sovetinin deputatı seçilmişdir. Bundan başqa, dəfələrlə yaxşı işinə görə Fəxri fərmanlarla təltif olunan Nəriman Əsədov həmçinin 1995-2009-cu illərdə RİHB yanında şuranın üzvü olmuşdur.

Əsədov Nəriman Şirvan oğlunun xidmətləri dövlətimiz tərəfindən də qiymətləndirilmiş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 iyul 2018-ci il tarixli 371 nömrəli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur.

Nəriman müəllim həm də gözəl ailə başçısıdır. Üç övladının hamısı ali təhsil alıb. Yeddi nəvəsi, bir nəticəsi var, baba kimi onların da qayğısına qalır... Bir sözlə, ictimaiyyətdə qazandığı yüksək nüfuzun da kökü elə onun ailədə qazandığı böyük hörmətdən gəlir.

Bəli, bizim Nəriman müəllimin var-dövləti onun həyatda qazandığı bol-bol xətir-hörmətdədir. O, həmişə deyir ki, insanlar arasında hörmətlə qarşılanırsansa, sayılırsansa, deməli, yaşayırsan. Arada olan xatir-hörmət ki itdi, onda yaşamağın da mənası olmaz, lüzumdan-urvatdan düşərsən. Ən böyük qazanc da, var da hörmətlə ölçülür. O da ki, hər kəsin özündən, gördüyü əməlindən asılıdır. Onu da ki, Nəriman müəllim kifayət qədər özü üçün təmin edə bilib.

Bu gətirdiyim rəsmi tərcümeyihal qeydlərindən də Nəriman müəllimin ağsaqqallıq siması aydın görünür. Baxmayaraq 5 ilə yaxındır ki, təqaüddədir, ancaq yenə üzərinə düşən ağsaqqallıq missiyasını Şükürbəyli kənd Ağsaqqallar şurasının sədri kimi ləyaqətlə yerinə yetirir.

Bəli, ağsaqqallar günümüzün canlı əcdadlarıdır. Nəriman müəllim bu gün nəticəsinin və nəvələrinin babası-əcdadı olaraq evdə - ailədə böyük kimi uca tutulduğu kimi, cəmiyyətdə də ağsaqqal olaraq tanınır və ehtiram göstərilir. 1987-ci ildən 2021-ci ilə kimi, 35 ilə yaxın müddətdə rəsmi olaraq Şükürbəyli kəndinin icra nümayəndəsi kimi fəaliyyət göstərmək asan iş deyil. Bir qərinədən çox vaxt ərzində rəsmi olaraq öz doğma kəndinə, el-obasına böyüklük etmək, xeyirində-şərində onlarla bir yerdə olmaq, ondan sonra isə beş il də ağsaqqal statusunda camaatı ilə bir yerdə olmaq - bu, Nəriman Əsədovun şərəfli ömür yolunun mühüm bir mərhələsidir. Bu gün o, 75 yaşın ucalıq mərtəbəsinə gəlib yetişib. Bu ömür zirvəsindən o qürurla keçmişə baxıb boylanır və gözlərinin qarşısından eli-obası ilə birgə keçirdiyi sınaq dolu illəri fərəhlə yad edir. Sevinir ki, elin şad günündə də, dar günündə də öz eli-obası ilə birgə olub. Bundan böyük xoşbəxtlik ola bilərmi? Xoşbəxtliyi elicamaatı ilə birlikdə olmaqda tapan insan nə bəxtiyardır!

Tanrıdan sizə uzun ömür, can sağlığı arzulayıram, elimizin-obamızın bəxtiyar ağsaqqalı!

***Şakir Albalıyev***

# QƏFİL GÖRÜŞ

*(hekayə)*

Hələ tezdən idi. Qədimdən erkən durmağa adət etmiş kənd camaatı mal-qaranı, qoyun-quzunu sahmanlayır, toyuq-cücəni rahatlayır, növbəti günün qayğıları ilə yaşayırdı.

Rəna da tezdən durmuş, axşam işdən yorğun qayıdan atası oyanmasın deyə iş-güclə başını qatsa da, qarmaqarışıq fikirləri başından ata bilməmişdi.

Azadı sonuncu dəfə dünən axşamüstü bulağın başında görmüşdü. Su doldurmağa gələn oğlan Rənaya ürək-dirək vermiş, "hər şey yaxşı olacaq" demişdi. Amma nədənsə qızın qəlbinə dəhşətli bir fikir hakim kəsilmişdi.

Yorulmuşdu. Həyətin küncündəki daşın üstündə oturdu. Həmişə belə idi. Elə ki, tək qaldı, fikir yumağı açılır, açıldıqca çözələnir, olub-qalan xatirələri göz önünə gətirirdi. Bu dəfə də belə oldu ...

... Anası rəhmətə gedəndə Rənanın on beş yaşı vardı. Atası ikinci dəfə evlənmək fikrini heç yaxına da buraxmaq istəməyib, "uşaqları yad əlinə verməərəm" - dedi. Özündən kiçik iki qız uşağının da bütün qayğıları Rənanın çiyninə düşürdü.

Günlər keçdikcə kənd arasında ara-sıra eşidilən söz-söhbət artdı, gerçəkləşdi və Həsən kişinin qapısına çatdı. Hər kəsdə bir eyib tapan Rənanın isə fikri başqa idi: - "bacılarımı ev-eşikli etməsəm heç kəsə "hə" deməərəm".

Elçilər qəfildən qeybə çəkiləndən sonra ta Rənanın adını dilinə gətirən olmadı. Çoxdan bəri özgə ocağında çıraq yandıran bacılarının da, elə atasının da fikri-zikri bircə Rəna idi. Onun tayları çoxdan ev-eşik sahibi olmuşdular. Əslində qızın özü də ərə getmək fikrində deyildi. Amma bir gün ...

.... Həmin gün Rəna çiynində səhəng sudan gəlirdi və dərənin tuşunda qəfil dayanan hərbi maşından tökülən əsgərləri gördü. Qabaqdakı oğlanı tanıdı. Qonşu kənddə yaşayan bacısının qohumu Elşən idi. Oğlan yaxın gəldi, Rəna ilə hal-əhval tutdu və qızın əlindəki qaba işarə edib su istədi.

Rəna səhəngi çiynindən aşırdı, oğlana su verdi. O biri əsgərlər də su içib maşına tərəf yürüşdülər.

Birdən sürücünün yanındakı hərbi geyimli bir kişi maşından enib qıza çatanda: - "Mənə də su verin"- dedi. Artıq həmin gündən çox keçmişdi. Rənanın sürücünün yanında gördüyü kişi tez-tez maşın yudurtmaq bəhanəsi ilə çeşmə başında görünməyə başlamışdı. Əvvəllər Elşənlə göndərilən söz-söhbət Rənanı hövsələdən çıxarır və qız oğlanı acılayırdı. Amma bu söhbətlər taleyindən onsuz da küsmüş qızın qəlbinə də, özünə də qaranlıq olan qəribə hisslər oyatmışdı. Sonra Rəna başa düşdü ki, Azad adlı bu kişi onun həyatını yerli-dibli dəyişdirəcək bir insan kimi qarşısına çıxıb.

.... Uzaqdan eşidilən top səsi qızı şirin xatirələrdən ayırdı və Rənanın nəzərləri dağın döşündəki postun həndəvərini gəzdi. Atəş açan kəndin qənşərindəki erməni postunun əsgəri idi. Kənd camaatı gecə-gündüz bu ları üstündən ötüb-keçən, hər gün neçə evi yerli-dibli dağıdan "Qrad" səslərinə adət etmişdi. Rənanın yadına iki-üç gün qabaq Azadın dediyi sözlər düşdü. Oğlan ona bu payız anasıgili onlara göndərəcəyini demiş və vaxtsız vəfat etmiş həyat yoldaşından sonra çal-çağırla toy etməyəcəyini bildirmiş, yeni xəbəri eşidəndə ana və bacılarının necə sevinəcəyini söyləmişdi.

Qız yarısevinc, yarıkədər qarışıq fikirlərlə həyət-bacanı dolaşmışdı. Onun da ailəsi, ev-eşiyi, gün-güzəranı olacaqdı.

Qız özündən çox gözü-könlü gələcək atasını, evlərinə məlul-müşkül gəlib-gedən bacılarını düşünürdü.

... Daşbaşı postundan eşidilən səslər get-gedə artırdı. Kənd camaatı da bu atəş səslərinin əvvəlkilərdən olmadığını düşünürdü. Rayon mərkəzindən kəndə gələn yolda BTR-i görəndə hamı məsələnin ciddiliyini başa düşdü. Yan tərəfinə "Əlyar Əliyev" yazılmış hərbi maşın qığılcım kimi Rənagilin həyətinin yanından ötüb keçdi.

Xeyli keçdi. Bayaqdan ara verməyən atəş səngimişdi. Bayaqkı hərbi maşın dağların döşü ilə sallanan yolda göründü. Amma maşın ağır gəlirdi. Yaxındakı evlərdən çıxanlar gözlərini yoldan çəkmirdilər. Rəna da baxırdı. Maşın kəndə girən kimi Rənagilin evinin qənşərində dayandı. Maşından tökülüşən əsgərlər adyal, döşək istədilər. Qız evə qaçdı. Əlinə keçəni götürüb həyətə çıxdı. Çığırışan qız-gəlini görəndə quruyub qaldı, yer-göy başına dolandı.

Həmin adyala bükülüb yola salınan təkcə Azad yox, həm də Rənanın gələcək xoşbəxtliyi, torpağa tapşırılan arzusu, diləkləri oldu. Rənaya qalan isə cəmi iki gün qabaq Azadın verdiyi şəkil oldu.

Bir gün axşamüstü isə camaat əllərinə keçəni də, başlarını da götürüb kənddən çıxdı. Artıq düşmən yuxarı kəndləri yandırmışdı. Rəna və qoca atası qonşularla birlikdə Saatlı rayonunun Araz qırağındakı kəndlərindən birinə gəlib çıxdılar. Kənd mağazasının yanına tökülən ailələrin sayı getgedə azalırdı. Yerli camaatın məsləhətləriylə Rəna və atası qoca bir qadının kiçik evinə yığışdılar. Qadın Rənanı başdan-ayağa süzdü və dedi:

- Qızım, bu evdə qarı-qocayıq. Otağın biri bizim, biri isə sizin olsun. Amma gərək əvvəlcə o otağı boşaldaq.

Rənagil həyətdə söhbətləşən qocaları qoyub evə sarı getdilər. Kandardan ayağını içəri qoyan kimi Rənanı elə bil ildırım vurdu. Güzgünün qabağında hərbi geyimli iri bir şəkil vardı. Rəna özü gəlib Azadgilə çıxmışdı. Qızın şəklə baxarkən qəribə hala düşdüyünü hiss edən ana: - "Oğlumdur, Cəbrayılda şəhid olub" - dedi. Rəna isə heç nə eşitmirdi. Qoynunda gəzdirdiyi şəklin bu saat yerə düşəcəyindən qorxub əlini koftasının düyməsinə atdı. Ana da mat qalmışdı. Bir Azadın güzgüdəki şəklinə, bir də Rənanın əlindəki fotoşəklə baxırdı. Ana oğlunun sevə-sevə danışdığı qızı tanımışdı.



***Almaz Məmmədova,***
***Nüsüs kənd sakini.***
***Şəki rayonu: Yeni Çələbixan məcburi köçkünlər qəsəbəsi***

# Bu gün Su çərşənbəsidir

**Novruz ərəfəsində qeyd olunan çərşənbələr xalqımızın qədim dünyagörüşünü, təbiətə və yaradılışa münasibətini özündə əks etdirir. Bu çərşənbələr dörd əsas ünsür – Su, Od, Torpaq və Yelin oyanışını simvolizə edir.**

Hər biri yeni həyatın başlanğıcına, təbiətin dirçəlişinə bir addım kimi qəbul olunur. Novruzun yaradılış bayramı olması da məhz bu ünsürlərin birliyinə söykənir. İlk çərşənbə isə suya həsr olunur və Su çərşənbəsi adlanır.

Folklorşünas Şakir Albalıyev Bakıvaxtı.az-a açıqlamasında bildirib ki, Novruz yaradılış bayramıdır və bu bayram ərəfəsində qeyd olunan dörd çərşənbə yaradılışın əsas ünsürlərini – suyu, odu, torpağı və yeli təmsil edir:

"Bu dörd ünsürün birləşməsi ilə yeni həyatın yarandığına inanılır. Su çərşənbəsinin ilk qeyd olunması təsadüfi deyil. Həm dini mənbələrdə, o cümlədən Quranda "hər bir canlını sudan yaratdıq" ifadəsi yer alır, həm də mifoloji təsəvvürlərdə həyatın başlanğıcı su ilə əlaqələndirilir. Rəvayətlərdə deyilir ki, yer üzü əvvəlcə sudan ibarət olmuş, daha sonra dağlar və dərələr yaranmışdır. Bu baxımdan su yaradılışın əsası kimi qəbul edilir".

Müsahibimiz qeyd edib ki, su həm həyatverici, həm də dağıdıcı gücə malikdir:

"Atalar sözündə deyildiyi kimi, "oddan qalar, sudan qalmaz". Yəni od müəyyən iz buraxa bilər, lakin sel və daşqın hər şeyi silib aparar. Bu, suyun məhvedici tərəfidir. Lakin Su çərşənbəsində əsas vurğulanan onun dirildici, şəfaverici və həyat bəxş edən xüsusiyyətidir".

Ş.Albalıyev əlavə edib ki, xalq inanclarına görə, Su çərşənbəsində insanlar bulaq başına, çay kənarına gedər, su üstündən atlanar, su ilə üz-gözünü yuyar, onunla paklanarlar:

"Bulaqdan su götürüb evə gətirmək bolluq və bərəkət rəmzi sayılır. Həmin suyun şəfa gətirəcəyinə, ilin ruzi-bərəkətli keçəcəyinə inanılır. Su ilə bağlı müxtəlif ayin və mərasimlər də icra olunur. Bu mərasimlər su ruhunu razı salmaq, sudan xeyir-dua və bərəkət diləmək məqsədi daşıyır. Beləliklə, Su çərşənbəsi suyun dağıdıcı yox, məhz həyatverici gücünü ön plana çıxaran, ümid və yenilənmə rəmzi olan bir mərasim kimi qeyd edilir".

***Su ilə bağlı sınamalar:***

İlk çərşənbədən başlayaraq qonşuya axşamcağı ələk, maya od verilməz. Zərurət olanda istəyə gələnin başından örpəyini götürüb sonra verərdilər.

Çərşənbədə evə süpürgə çəkmək olmaz.

***İnanclar:***

"Süfrəyə su dağılması aydınlıqdı.
Su içən adamı danışdırmazlar.
Lal axan sudan keçməzlər.
Yuxuda su görmək aydınlıqdı.
Səfərə çıxan adamın arxasınca su atarlar.
Odu su ilə söndürmək günahdır".

***Su ilə bağlı ata sözləri:***

"Suyun lal axanı, adamın yerə baxanı.
Su bir yerdə qalanda iylənər.
Su səhəngi suda sınar.
Su murdarlıq götürməz".

***Su ilə bağlı türkəçarələri:***

"Su çərşənbəsində övladı olmayan qadının başından qırxaçar camdan su töksən övladı olar.

Su çərşənbəsində qorxan adamın başından üç dəfə sağdan, üç dəfə soldan su töksən qorxusu keçər".

***Su ilə bağlı alqışlar:***

"Qamən axan görglü suyun qurumasın!
Qara başım qurban olsun ,suyum, sana!".

***Su ilə bağlı tapmacalar:***

"Ay gedər ha il gedər gecə gündüz yol gedər (su)".

Qeyd edək ki, Od çərşənbəsi martın 3-ü, Yel isə 10-u qeyd ediləcək. Torpaq (İlaxır) çərşənbəsi isə matrın 17-nə təsadüf edir.

Novruz bayramı günləri 20-24 mart tarixlərini əhatə edəcək.

Su çərşənbəniz mübarək!

***Aynur Babazadə***

# Bir Günəş doğmuşdu başımın üstə...

**_Tural Fərhad oğlu Zeynallının həyatdan nakam köçməsinə elegiyalar_**



## Ay Tural

Bu bahar səninçün soyuq qış oldu,
Gənc ömrün əcələ qəfil tuş oldu.
Qəlbimdə qəm, gözlərimdə yaş oldu,
Gözlərimin nuru, Tural, ay Tural!

Dönük tale səni bizdən tez aldı,
Mənim varlığımı yoxluğa saldı,
Bütün xoş arzular yarımçıq qaldı,
Babanın qüruru Tural, ay Tural!

Qönçə idin çiçəklərin dəstində,
Bilməm niyə fələk durdu qəsdində?!
Sən köçkün ömrünün bahar fəslində,
Saf sulardan duru, Tural, ay Tural!

İldırımtək tez parlayıb alışdın,
Hər sahədə fəallara qarışdın,
Vaxtsız ölümünlə niyə barışdın,
Budur sual - soru, Tural, ay Tural!!!

***Bəhram Zeynalov (babası)***

## Bağlamaz

Bir yaram var ürəyimin başında,
İllər ötər, yaram qaysaq bağlamaz.
Oğul itirmişəm cavan yaşında,
Heç kim deməsin ki, "kişi ağlamaz",
Ölənəcən yaram qaysaq bağlamaz.

Dindirməyin, dəymədüşər olmuşam,
Dağım uçub, mən altında qalmışam,
Qaralmışam, bulud kimi dolmuşam,
Dolan bulud yağışını saxlamaz,
Ölənəcən yaram qaysaq bağlamaz.

Kaş bunlar bir yalan yuxu olaydı,
Mən özüm öləydim, balam qalaydı.
O, məni çiynində yola salaydı
Ata ölsə oğlu belə dağlamaz,
Ölənəcən yaram qaysaq bağlamaz!

## Qoru Allah

Sağ gözümü itirdim,
Solumu qoru, Allah.
Əsirgəmə evimdən
İşığı, nuru, Allah!

Sən verdin, sən də aldın,
Haqq sənin , dərgah sənin.
Hər bir əməllərinə
Şükürlər Allah sənin!

Balamı alan Allah,
Sən ver mənə dözümü.
Sağ gözümü almısan,
Hifz elə sol gözümü!

## Qaldı

Bir Günəş doğmuşdu başımın üstə,
Kəsdi qabağını qara buludlar.
Soldu çiçəklərim dəstəbədəstə
Bağında ağaclar gətirmədi bar.

Xəzan vurdu çiçək açan bağını,
Nübar edib meyvəsini yemədin.
Çəkəmmədin dağdan ağır dağını,
Bir kimsəyə dərdini də demədin.

Əcəl səni yarı yolda haqladı,
Yandı şans biletin, əlində qaldı.
Neçə-neçə arzun çiçək açmadı,
Son kəlmən ilişib dilində qaldı.

İndi ürək dostum, sirdaşım olub
Bir dilsiz baş daşı, bir sinə daşı.
Hər cümə ziyarət etdiyim məzar,
Bir də yanağımda donan göz yaşı.

## Cənnət məkan

Ey məni sevənlərim:
Nənəm, babam, qardaşım,
Atam, anam, sevgilim,
Dostum, sinif yoldaşım,

Mənə yas saxlamayın,
Məni ölmüş sanmayın.
Ah-nalə qoparmayın,
Halıma da yanmayın.

Mən bir CƏNNƏT əhliyəm,
Deməyin ki, ölmüşəm.
Allahdan gəlmiş idim,
Allaha da dönmüşəm.

Yerim, ünvanım bəlli,
Sizdən uzaq deyiləm.
Nə əsir düşməmişəm,
Nə də dustaq deyiləm.

Hər kəsin dönəcəyi
Son mənzildir ünvanım.
Məndən arxayın olun,
Bir Cənnətdir məkanım!

## Unuda bilmir

Xiffətindən ürəyimə köz düşüb,
Sel olan göz yaşım soyuda bilmir.
Çox da ki, dostlarım "səbr et, döz " deyir,
Bir kimsə könlümü ovuda bilmir.

Dərdinin çarəsi olmadı bəlli,
Müşkülmüş bu çətin sualın həll,
Nə loğman, nə təbib, nə bir təsəlli
Ananın göz yaşın quruda bilmir.

Tək qalan zavallı kiçik qardaşın
Süzür pünhan-pünhan gözünün yaşın,
Neçə dost-tanışın, neçə yoldaşın
Sadiq Dostlarını unuda bilmir.

***

Toxunmayın bu yerə,
Bu yerdə balam yatır.
Bir ömür sağalmayan
İrinli yaram yatır.

Bu yerdə güllər əkin
Hər yan gülüstan olsun.
Sağalmayan yarama
Bəlkə bir dərman olsun.

Qoy bu yerdə hər tərəf
Gül-çiçək ətri versin.
Heç olmasa gecələr
Balam yuxuma girsin.

***

Bu gün məktəblərdə son zəng çalındı,
Dostların həyata qədəm qoydular.
Məzun cərgəsində təkcə sən yoxdun,
Yerinə bəzənmiş ələm qoydular.

Bu gün məktəblərdə son zəng çalındı,
Şagirdlər məktəblə vidalaşırdı.
Sinif otağında asılmış şəklin
Elə bul hamıyla halallaşırdı.(sağollaşırdı)

Üzündə təbəssüm, gözlərində nur
Sanki özün idin, şəklin deyildi.
Xəfif təbəssümlə gülümsəyərək
Bir qıza "sevirəm səni " deyirdi.

Qaldı ürəyində arzurar min-min,
Ömrünün sonuncu zəngi çalındı.
Hələ yaşamağa başlamamışdın
Ölümə aparan cəngi çalındı!

***

Ey sadiq baş daşı, ey sinə daşı,
Turalımı sənə etdim əmanət.
Bu gündən sən oldun dostu, sirdaşı
Sən Allah balama etmə xəyanət.

Sən onu küləkdən, tufandan qoru,
Yağışdan, yağmurdan, leysandan qoru.
Balama "göz dəyər, nəzər toxunar",
Onu bəd nəzərdən, yamandan qoru.

Görmədim bir dəfə şən Turalımı,
Gördüm başı üstə çən Turalımı,
Ey sadiq baş daşı, sənə əmanət,
Qoruya bilmədim mən Turalımı!

***

"Soyuqdur deyirlər torpağın üzü,
Burada yatanlar tez unudulur"
Bunu kim deyibdir bilmirəm düzü,
Sevimli insanlar ölümsüz olur!

## Yaza bilmirəm...

Məzarın önündə bitib qalmışam,
Ayaq tab gətirmir, dil də quruyub.
Özüm öz içimdə itib qalmışam,
Əlimdə tutduğum gül də quruyub.

Bu necə kədərdir, bu necə ələm,
Sönük gözlərimdə yaş da danışır.
Elə bil özüm də özüm deyiləm,
Torpaq da dillənir, daş da danışır.

Ananın boğunuq səsi titrəyir,
Qardaşın gizlicə göz yaşın silir.
Buludlar arabir yağış çiləyir,
Göylər də özünü günahkar bilir.

Hər gecə yuxuma qonaq gəlirsən,
Səhərlər yuxumu yoza bilmirəm.
Qələmim kağıza göz yaşın tükür,
Məni də ağladır, yaza bilmirəm...

***

*Saxlayaq saatın əqrəblərini,*
*Zaman tələsməsin, ömür bitməsin.*
*Qaranlıq sabaha versin yerini,*
*Bir övlad həyatdan vaxtsız getməsin!..*

***Çərkəz Mirzə Məhərrəmov***

# "Talassemiyasız həyat naminə"

18 mart 2026-cı il tarixdə Cəbrayıl Rayon İcra Hakimiyyəti, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Respublika Qan Bankı" publik hüquqi şəxsi və Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının birgə təşkilatçılığı ilə Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasında qanvermə aksiyası keçirilib.

Aksiyada Rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə İbayeva, idarə, müəssisə və təşkilatların əməkdaşları, ictimaiyyət nümayəndələri və könüllü vətəndaşlar iştirak edib. Aksiya çərçivəsində bütün donorların ilkin sağlamlıq müayinəsi aparılıb, onların qan verməyə uyğunluğu müvafiq qaydada yoxlanılıb. Tibbi personal tərəfindən qanvermə prosesi təhlükəsiz və sanitar normalara uyğun şəkildə təşkil edilib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən proqram ölkəmizdə minlərlə insanın sağlam gələcəyinə ümid verir və donorluğun təşviqi, xəstəliklərin qarşısının alınması sahəsində əhəmiyyətli rol oynayır.



**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Ulu Xudafərin" qəzeti**

**Sədətquliyeva Zeynəb Qurban qızı, Abdullayeva Həqiqət Babakişi qızı, Məmmədov Həsən Osman oğlu, Vəliyev Eltac Kazım oğlu, Sədrəddinov Vaqif Nəcim oğlu, Məmmədova Lətifə Topuş qızı və Cəfərov Pənah Cəmil oğlunun** vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Təsisçi və baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində qeydə alınıb. Şəhadətnamə №B71A40FEB25945
**CİF 1209641**
**H/h:55233080000**
**kod: 200123**
**VÖEN: 3103823792**
**SWIFT kod: AIIBAZ2X**
**M/h: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ83AIIB410400C9445674829103**

**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
"Azərbaycan" nəşriyyatı.
**Telefon:** (051) 441-15-82; (010) 712-36-97

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet "Ulu Xudafərin" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 200**
**Tiraj: 2000**